**AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI**
**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ**
**SUMQAYIT DÖVLƏT TEXNIKI KOLLECI**

# “*Avtomobil nəqliyyatında hüququn əsasları*”

***fənnindən mühazirələr***

**Orta Ixtisas Təhsil müəssisələrində**
**fənnin tədrisi üçün nəzərdə tutulub**

***SUMQAYIT-2020***

*Avtomobil nəqliyyatının hüquqi əsasları*

**Əsas anlayışlar**-bu qanunda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

Avtonəqliyyat vasitəsi-sərnişin, yük və ya xüsusi avadanlığın avtomobil yolları ilə daşınması üçün nəzərdə tutulmuş mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitəsi (bir və ya bir neçə nəqliyyat vasitəsindən ibarət);

Avtomobil nəqliyyatı-avtonəqliyyat vasitələrindən və avtomobil nəqliyyatının infrastrukturundan istifadə edilməklə, sərnişin və yük daşımalarının yerinə yetirildiyi nəqliyyat növü;

Avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı-özünün və ya sifarişçinin adından sərnişinlərin və ya yüklərin daşınması, həmçinin avtomobil nəqliyyatı ilə daşımaların təşkili ilə əlaqədar müqavilələr bağlayan hüquqi və ya fiziki şəxs;

Avtomobil nəqliyyatı ilə kommersiya məqsədli daşımalar-sərnişin və ya yük daşınması müqaviləsi yaxud digər qanun əsaslarla, daşınma haqqı ödənilməklə yerinə yetirilən daşımalar;

Avtomobil nəqliyyatı ilə təsərrüfat ehtiyacları üçün daşımalar-hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən sərəncamlarında olan avtonəqliyyat vasitələri ilə işçilərin və ya yüklərin daşınması məqsədilə və öz hesabına yerinə yetirilən daşımalar.Bu cür daşımalar üçün istifadə olunan avtonəqliyyat vasitələri həmin hüquqi şəxslərin və ya fərdi sahibkarların işçiləri tərəfindən idarə olunmalıdır;

Avtomobil nəqliyyatının infrastrukturu-avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üçün istifadə olunan avtomobil yolları, avtovağzallar (avtostansiyalar), dayanacaq məntəqələri, avtomobil duracaqları, terminallar və digər qurğular, habelə avtonəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir sahələri və texniki-təmir stansiyaları, yanacaqdoldurma məntəqələri;

Avtobus sürücünün oturacaq yeri daxil olmaqla, oturacaq yerlərinin sayı doqquzdan çox olan, sərnişin daşımaları üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitəsi;

Baqaj-daşınmaq üçün qablaşdırılmış, sərnişin tərəfindən avtonəqliyyat vasitəsilə göndərilən və ya səfər boyu müşayiət edilən, qabariti, çəkisi və xüsusiyyətindən asılı olaraq daşınmasına icazə verilən yük;

Daşıyıcı-daşınma müqaviləsi və ya digər qanuni əsaslarla sərnişin və yük daşımalarını yerinə yetirən hüquqi şəxs və ya fərdi sahibkar;

Əl yükü-sərnişinə məxsus və öz xüsusiyyətlərinə, ölçülərinə, çəkisinə görə sərnişin avtonəqliyyat vasitəsinin salonunda daşınmasına icazə verilən əşyalar;

Gediş sənədi (bilet)-sərnişinin avtobusda gediş hüququnu, sərnişin və daşıyıcı arasında daşınma müqaviləsinin bağlanmasını təsdiq edən və müəyyən edilmiş formada rəsmiləşdirilən sənəd;

Sərnişin avtonəqliyyat vasitəsi-kontruksiyasına və təchiz edilmiş avadanlığına görə insanların və baqajın daşınması üçün nəzərdə tutulmuş nəqliyyat vasitəsi;

Sərnişin-avtonəqliyyat vasitəsində gediş hüququ verən sənəd (bilet) və ya digər qanuni əsaslarla daşınan fiziki şəxs;

Sərnişin daşınması-sərnişinlərin avtonəqliyyat vasitəsilə yoladüşmə məntəqəsindən təyinat məntəqəsinə çatdırılması;

Sifariş-avtomobil nəqliyyatı ilə sərnişin və ya yük daşımalarının sifarişçisi ilə daşıyıcı arasında münasibətləri tənzimləyən müqavilə;

Sifarişçi-sərnişin və ya yük daşımalarının yerinə yetirilməsi barədə müvafiq qaydada müqavilə bağlamış orqan yaxud onun tərəfindən təyin edilmiş səlahiyətli hüquqi şəxs, habelə sərnişin və ya yük daşımaları barədə daşıyıcı ilə müqavilə bağlayan hüquqi və ya fiziki şəxs;

Sürücü-avtonəqliyyat vasitəsini idarə etmək hüququ olan, daşımalar prosesində birbaşa iştirak edən, habelə müvafiq hallarda daşıyıcını təmsil edən şəxs;

Yük-avtomobil daşıyıcısı tərəfindən təyinat məntəqəsinə çatdırılmaq üçün qəbul edilmiş əmtəə və ya qeyri-əmtəə təyinatlı mal

*Avtomobil nəqliyyatının hüquqi mənbələri*

Avtomobil nəqliyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Republikasının Mülki Məcəlləsindən, “Nəqliyyat haqqında” Azərbaycan Respublikasının Qanunundan, bu Qanundan, habelə həmin sahəni tənzimləyən digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Qanunun tətbiq dairəsi-bu qanun avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması xidmətlərinin göstərilməsi, həmçinin avtomobil nəqliyyatının infrastruktur obyektləri ilə əlaqədar dövlət orqanları, daşıyıcılar, infrastruktur obyektlərinin sahibləri və nəqliyyat xidmətlərinin istehlakçıları arasında yaranan hüquqi və iqtisadi münasibətlərə tətbiq olunur.

Bu qanunun müddəaları aşağıdakılara şamil edilmir:

kommunal və təcili tibbi yardım xidmətlərə məxsus, həmçinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təxirəsalınmaz təcili xidmətlərə aid edilmiş avtonəqliyyat vasitələri ilə yerinə yetirilən daşımalara;

müdafiə, ictimai əsayişin qorunması və fövqəladə halların aradan qaldırılması ilə əlaqədar olan avtomobil daşımalarına;

dövlət hakimmiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Azərbaycan Respublikası Milli Bankının, büdcədənkənar dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi və xidməti istifadəsi üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitələri ilə yerinə yetirilən daşımalar;

hüquqi şəxslərin və fərdi sahibkarların xidməti istifadəsi üçün nəzərdə tutulmuş minik avtomobilləri ilə yerinə yetirilən daşımalara;

hüquqi şəxslərin və fərdi sahibkarların ümumi istifadədə olan avtomobil yollarına çıxmadan yerinə yetirdiyi texnoloji və təsərrüfatdaxili (müəssisələrin, obyektlərin daxilində) avtomobil nəqliyyatı ilə daşımalarına;

fiziki şəxslərin mülkiyyətində yaxud istifadəsində olan avtonəqliyyat vasitələri şəxsi ehtiyaclar üçün yerinə yetirdikləri daşımalara.

## *Avtomobil nəqliyyatı ilə daşımaların növləri*

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaların təyinatına görə aşağıdakı növlərə bölünür:

Şəhərdaxili (rayondaxili) sərnişin daşımaları-şəhərin (rayonun) inzibati-ərazi hüdudları daxilində yerinə yetirilən sərnişin daşımaları;

Şəhərlərarası (rayonlararası) sərnişin daşımaları-ayri-ayrı şəhərlərin (rayonların) inzibati ərazisində yerləşən yaşayış məntəqələri arasında yerinə yetirilən sərnişin daşımaları;

Müntəzəm sərnişin daşımaları-işin başlanması və başa çatması vaxtları, sərnişinlərin avtomobil nəqliyyatına minməsi və ondan düşməsi yerləri, habelə tariflər müəyyən edilməklə, müvafiq cədvəl (hərəkət intervalı) və marşrut üzrə yerinə yetirilən sərnişin daşımaları;

Qeyri-müntəzəm sərnişin daşımaları-sifarişçi ilə bağlanmış müqavilə (sifariş) əsasında daşıyıcı tərəfindən yerinə yetirilən və müntəzəm daşımalar aid olmayan sərnişin daşımaları;

Ölkədaxili yük daşımaları-Azərbaycan Respublikasının hüdudları daxilində yerinə yetirilən yük daşımaları;

Beynəlxalq daşımalar-avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisindən digər dövlətlərə və ya digər dövlətlərdən Azərbaycan Respublikasının ərazisinə, habelə Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçməklə yerinə yetirilən sərnişin və yük daşımaları.

## *Avtomobil nəqliyyatı sahəsində fəaliyyətin əsas prinsipləri*

Avtomobil nəqliyyatı sahəsində işlərin görülməsi və xidmətlərin göstərilməsi aşağıdakı prinsiplərə əsaslanır:

Avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən bütün subyektlərin mülkiyyət növündən asılı olmayaraq hüquq bərabərliyi;

Avtomobil nəqliyyatı sahəsində fəliyyətin dövlət tənzimlənməsinin sosial yönümlüyü və ictimai maraqların üstünlüyünün təmin olunması;

Avtomobil nəqliyyatı xidmətlərinin istehlakçıların tərəfindən daşıyıcının azad seçilməsi;

Avtomobil nəqliyyatı sahəsində fəaliyyətin təhlükəsizliyinin vahid norma, standart və qaydalar əsasında təmin olunması.

## *Avtonəqliyyat vasitələrinə və avtomobil nəqliyyatının infrastrukturuna dair ümumi tələblər*

Avtonəqliyyat vasitələrinin kütlə, qabarit ölçüləri və digər texniki göstəriciləri hərəkətin təhlükəsizliyi, əməyin və ətraf mühitin mühafizəsinə dair Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının tələblərinə uyğun olmalıdır.

Avtonəqliyyat vasitələrinin əlavə avadanlıqla, o cümlədən müxtəlif təyinatlı nəzarət cihazları ilə təchiz edilməsinə dair tələblərin Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunur.

Ümumi istifadədə olan sərnişin avtonəqliyyat vasitələrinə, habelə ümumi istifadədə olan sərnişin avtomobil nəqliyyatı üçün dayanacaqlara dair ümumi tələblər “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qadaları” ilə müəyyən olunur.

Avtomobil nəqliyyatının infrastrukturu sərnişin və yük daşımalarının yerinə yetirilməsinə, yol hərəkətinin təhlükəsizliyinə, ətraf mühitin mühafizəsinə dair, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş digər tələblərə cavab verməlidir.

Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil duracaqlarının, terminallarının və digər duracaqların, habelə avtonəqliyyat vasitələrinə təminatlı texniki xidmət göstərən texniki-təmir stansiyalarının, yanacaq doldurma məntəqələrinin yerləşdirilməsi yaxud yenidən qurulması sərnişin və yük axınının həcminə, həmçinin nəqliyyat xidmətləri istehlakçılarının tələbatına uyğun olaraq, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının rəyi nəzərə alınmaqla qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## *Avtovağzallara (avtostansiyalara) dair tələblər*

Avtovağzallar (avtostansiyalar) şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə müntəzəm sərnişin daşımasını yerinə daşıyıcılara və sərnişinlərə xidmət göstərilməsi məqsədilə ayrı-ayı şəhərlərdə və rayonların inzibati mərkəzlərində, sərnişin axını intensiv olan iri nəqliyyat qovşaqlarında təşkil olunur.

Avtovağzalda 75-dən artıq sərnişin tutan gözləmə zalı, ən azı inzibati bina və ya xidməti otağı, bir neçə bilet kassası, ana və uşaq otağı, baqaj saxlama kamerası, iaşə, mədəni-məişət və sanitar-gigiyenik təyinatlı sahələr, tibbi yardım və polis məntəqələri, sürücülərin istirahət otağı, sərnişinlərin minib-düşməsi üçün perron, avtobusların reyslərarası dayanması üçün meydança və təmizləmə postu, habelə şəhər nəqliyyatının və taksi minik avtomobillərinin dayanması üçün vağzalyanı sahə olmalıdır.

Avtostansiyada 75-dək sərnişin tutan gözləmə zalı, ən azı bir xidməti otağı, bilet kassası, sanitar-gigiyenik təyinatlı sahə, sərnişinlərin minib-düşməsi üçün perron olmalıdır.

Avtovağzallarda (avtostansiyalarda) aşağıdakı növ xidmətlər göstərilir:

Gediş sənədlərinin (biletlərin) satışı;

Sərnişin avtonəqliyyat vasitələrinin gəlməsinin və yola düşməsinin idarə olunması;

Sənişin avtonəqliyyat vasitələrinin sanitar-gigiyenik vəziyyətinə, müvafq avadanlıq və ləvazimatlarla təchiz olunmasına nəzarət;

Ticarət və məişət xidmətləri;

Sərnişinlər və daşıyıcılar tərəfindən avtonəqliyyat vasitəsilə sərnişin və baqaj daşınması qaydalarına riayət olunmasına nəzarət;

Gün ərzində eyni vaxtda müvafiq xidmətlər göstərilə bilən sərnişinlərin sayından, binaların, tikililərin, texnoloji avadanlıqla təchizatından, həmçinin göstərilən xidmətlərin çeşidindən və səviyyəsindən asılı olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər bir avtovağzala (avtostansiyaya) kateqoriyasına uyğun olaraq pasport verilir.Pasport avtovağzalın (avtostansiyanın) fəaliyyət göstərməsi üçün rəsmi sənəd hesab edilir. Pasport olmadan avtovağzalın (avtostansiyanın) fəaliyyət göstərməsinə, habelə avtovağzalın (avtostansiyanın) fəaliyyətinin müvafiq kateqoriyaya uyğun texnoloji prosesinin pozulmasına görə təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Avtovağzalın (avtostansiyaların) göstərdiyi xidmətlərin onlara verilmiş pasporta uyğunluğuna nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.Avtovağzalıın (avtostansiyanın) göstərdiyi xidmətlərin səviyyəsi ona verilmiş pasportda qeyd edilmiş kateqoriyadan aşağı olduqda, müvafiq icra hakimiyyəti orqanı pasportun qüvvəsini dayandıra və ya pasporta müəyyən olunmuş kateqoriyanı aşağı sala bilər.

## *Avtonəqliyyat vasitələrinin qeydiyyatı*

Sərnişin və yük daşımaları üçün istifadə olunan avtonəqliyyat vasitəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alınmalıdır.Həmin avtonəqliyyat vasitəsi yalnız bir dövlətdə qeydiyyata alına bilər.

Avtonəqliyyat vasitələrinin dövlət qeydiyyatının aparılması qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən olunur.

Dövlət qeydiyyatına alınmamış avtonəqliyyat vasitəsindən istifadə olunması qadağandır.

## *Avtomobil nəqliyyatında əmək münasibətlərinin tənzimlənməsi*

Avtomobil nəqliyyatı sahəsində əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi və digər müvafiq normativ hüquqi aktları ilə tənzimlənir.

Avtomobil nəqliyyatı işçilərinin ayrı-ayrı kateqoriyalarının iş və istirahət rejimi, ev şəraitinin xüsusiyyətləri Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunur.

## *Avtomobil nəqliyyatı sahəsində dövlət idarəetməsinin və tənzimlənməsinin əsas vəzifələri*

Avtomobil nəqliyyatı sahəsində dövlət idrəetməsinin əsas vəzifələri aşağıdakılardır:

Vahid dövlət siyasətinin həyata keçirilməsi;

Azərbaycan Republikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş qayda və tələblərə riayət olunmasına nəzarət edilməsi;

Avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsi zamanı texnoloji və ekoloji təhlükəsizliyinin təmin olunması üçün şərait yaradılması;

Avtomobil nəqliyyatı sahəsində dövlət tənzimlənməsinin əsas vəzifələri aşağıdakılardır:

Iqtisadiyyatın və əhalinin avtomobil nəqliyyatı ilə daşımalar, həmçinin digər nəqliyyat xidmətlərinə olan ehtiyaclarının təmin olunmasına şərait yaradılması;

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində sahibkarlığın stimullaşdırılması, daşıyıcılar arasında azad rəqabətin təmin olunması, habelə avtomobil nəqliyyatı xidmətlərindən istifadə edən hüquqi fiziki şəxslərin qanuni maraqlarının dövlət tərəfindən qorunması;

Azərbaycan Respublikasının avtomobil daşıyıcılarının beynəlxalq daşımalar bazarında rəqabət qabiliyyətinin artırılması üçün əlverişli şəraitin yaradılması;

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşıyıcılarının ölkədaxili və beynəlxalq avtomobil daşımaları bazarına çıxışının tənzimlənməsi;

Avtomobil nəqliyyatı xidmətlərinin ixracının stimullaşdırılması;

Avtomobil nəqliyyatı ilə daşımaların vahid norma və qaydalar əsasında təhlükəsiz yerinə yetirilməsi üçün şərait yaradılması;

Avtomobil nəqliyyatı ilə daşımalar bazarında inhisarçılığın qarşısının alınması və azad rəqabət mühitinin inkişaf etdirilməsi;

Ümumi istifadədə olan avtomobil nəqliyyatında tarif siyasətinin formalaşdırılması;

Avtomobil nəqliyyatı ilə daşımalar yerinə yetirilərkən ətraf mühitin qorunması.

## *Avtomobil nəqliyyatı xidmətlərinin tarifləri*

Avtomobil nəqliyyatı xidmətlərinin tarifləri Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzədə tutulmuş qaydada müəyyən olunur.

Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşınma tariflərinin yuxarı həddi Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq müəyyən edillir.

## *Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının lisenziyalaşdırılması*

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları xidmətlərinin istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə inhisarçılığın qarşısının alınması, daşımaların təhlükəsizliyinin, ətraf mühitin və əməyin mühafizəsinin təmin olunması məqsədilə bu fəaliyyət növləri ilə məşğul olan hüquqi şəxslərin və fərdi sahibkarların fəaliyyəti lisenziyalaşdırılır.

Bu qanunla müəyyən edilmiş hallar istisna edilməklə, xüsusi razılıq (lisenziya) olmadan və ya digər şəxslərə məxsus xüsusi razılıq (lisenziya) əsasında sərnişin və yük daşımalarının yerinə yetirilməsinə yol verilmir.

Xüsusi razılıq (lisenziya) avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının aşağıdakı növlərinin yerinə yetirilməsi üçün verilir:

Şəhərdaxili (rayondaxili) sərnişin daşımalarına;

Şəhərlərarası (rayonlararası) sərnişin daşımalarına;

Beynəlxalq sərnişin daşımalarına;

Taksi minik avtomobilləri ilə sərnişin daşımalarına;

Ölkədaxili yük daşımalarına;

Beynəlxalq yük daşımalarına;

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması sahəsində fəaliyyət üçün bu Qanunun 13.3-cü maddəsində nəzərdə tutulmuş hər bir daşıma növü üzrə ayrıca xüsusi razılıq (lisenziya) tələb olunur.

Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşınmasına verilmiş razılıq ( lisenziya) əsasında yük daşıyıcısı ölkədaxili yük daşımalarını yerinə yetirmək hüququna malikdir.

Hüquqi şəxslər və ya fərdi sahibkarlar tərəfindən sərəncamlarında olan avtonəqliyyat vasitələri ilə təsərrüfat ehtiyacları üçün öz işçilərinin və ya yüklərinin daşınmasına xüsusi razılıq (lisenziya) tələb olunmur.

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasına xüsusi razılıq (lisenziya) qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbqaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən 5 il müddətinə verillir.

## *Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsinin şərtləri*

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının yerinə yetirilməsinə xüsusi razılıq (lisenziya) aşağıdakı şərtlərlə verilir:

Hüquqi şəxsin və ya fərdi sahibkarın vergi orqanlarında qeydiyyatda olması;

Hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyət hüququ və ya digər qanuni əsaslarla təyinatına, konstruksiyasına, habelə daxili və xarici avadanlıqla təchizatına görə yük və sərnişin daşımalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş və qanunvericiliklə müəyyən edilmiş qaydada yol hərəkətinə buraxılmış avtonəqliyyat vasitələrinə malik olması;

Hüquqi şəxsin və ya fərdi sahibkarın müəyyən edilmiş tələblərə cavab verən və bu Qanunun 27.3 və 50.5-ci maddələri ilə nəzərdə tutulmuş xüsusi hazırlıq keçmiş avtonəqliyyat vasitələrinin sürücüləri ilə əmək müqaviləsinin olması;

Hüquqi şəxsin və ya fərdi sahibkarın mülki məsuliyyətin icbari sığortası

## *Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının lisenziyalaşdırılmasının xüsusiyyətləri*

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına verilən xüsusi razılığa (lisenziyaya) onu almış daşıycının sərəncamında olan avtonəqliyyat vasitələrinin sayına uyğun olaraq lisenziya kartları əlavə edilir.

Lisenziya kartında aşağıdakılar göstərilir:

Lisenziya kartının nömrəsi və verilmə tarixi

Xüsusi razılığın (lisenziyanın) qeydiyyat nömrəsi, tarixi və qüvvədə olma müddəti;

Xüsusi razılıq (lisenziya) sahibinin adı və ünvanı;

Avtonəqliyyat vasitəsinin markası, növü və dövlət qeydiyyat nişanı barədə məlumatlar;

Daşımaların növü (müntəzəm sərnişin daşımalarında müvafiq müntəzəm marşrutunun nömrəsi göstərilməklə);

Avtonəqliyyat vasitəsinin rüblük texniki yoxlamadan keçməsi barədə qeydlər;

Lisenziya kartını vermiş səlahiyyətli orqanın möhürü və vəzifəli şəxsinin imzası;

Lisenziya kartının etibarlılıq müddəti.

Lisenziya kartının etibarlılıq müddəti xüsusi razılığın (lisenziyanın) qüvvədə olma müddəti ilə eynidir.Avtonəqliyyat vasitəsindən icarə və ya etibarnamə əsasında istifadə edildikdə, lisenziya kartının etibarlılıq müddəti xüsusi razılığın (lisenziyanın) qüvvədə olma müddətindən artıq olmamaqla, icarə müqaviləsinin yaxud etibarnamənin qüvvədə olma müddəti ilə müəyyən edilir.

Sərəncamında olan avtonəqliyyat vasitələrinin sayı dəyişdikdə yaxud avtonəqliyyat vasitəsi başqası ilə əvəz olunduqda, hüquqi şəxs və ya fərdi sahibkar sərnişin və yük daşınmasına xüsusi razılıq (lisenziya vermiş orqana əlavə lisenziya kartlarının verilməsi haqqında ərizə ilə müraciət etməlidir.Ərizəyə bu Qanunun 14.2.4-cü, 14.2.5-ci, 14.2.6-cı və 14.2.7-ci maddələrində müəyyən edilmiş sənədlər əlavə olunmalıdır.Əlavə lisenziya kartlarının verilməsi haqqında ərizəyə 10 gün müddətində baxılır və nəticəsi barədə müraciət edən şəxsə yazılı formada bildirilir.

Sərnişin və yük daşımaları üçün avtonəqliyyat vasitəsinə lisenziya kartı verilərkən, habelə lisenziya kartı verildikdən sonra rübdə bir dəfə həmin avtonəqliyyat vasitəsinin texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğu Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edillir.

Sərnişin və yük daşınmasına verilmiş xüsusi razılıq (lisenziya) ləğv edildikdə, qüvvəsi dayandırıldıqda və ya daşımalarda istifadə edilən sərnişin və ya yük avtonəqliyyat vasitəsi rüblük texniki yoxlamadan keçmədikdə, lisenziya kartları daşıyıcıdan geri alınır.

Nəqliyyat xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin artırılması məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən avtomobil nəqliyyatı ilə daşımaların və ya avtonəqliyyat vasitələrinin müəyyən növləri üçün xüsusi razılığın (lisenziyanın) yaxud lisenziya kartlarının sayına məhdudiyyətlər tətbiq edilə bilər.Müvafiq icra hakimiyyəti orqanı məhdudiyyətləri tədbiq etməzdən 60 gün əvvəl kütləvi informasiya vasitələrində məlumat verir.

## *Avtomobil nəqliyyatı ilə sərnişin, baqaj və yük daşınması qaydaları*

Avtomobil nəqliyyatı ilə sərnişinlərin və yüklərin daşınmasının təşkili və yerinə yetirilməsi qaydası müvafiq olaraq “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” və “Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları” ilə müəyyən edilir və müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur.

## *Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımalar*

Daşıyıcının hər hansı hüquqi və ya fiziki şəxsin sifarişi (müraciəti) ilə tənzimlənən və ya elan edilmiş tariflər üzrə daşımaları yerinə yetirmək öhdəliyi ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə kommersiya məqsədli daşınma hesab edilir.

Ümumi istifadə olan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcı daşımaların şərtlərinin, o cümlədən tariflər barədə məlumatların şəffaflığını təmin etməlidir.

## *Taksi minik avtomobilləri ilə sərnişin daşımaları*

Taksi minik avtomobilləri ilə sərnişin daşımaları xüsusi razılığa (lisenziya) malik olan daşıyıcılar tərəfindən metroloji yoxlamadan keçmiş taksometrin göstəriciləri üzrə, ödəniş əsasında yerinə yetirilir.

Taksi minik avtomobilləri ilə sərnişin daşımaları müəyyən edilmiş ərazi hüdudları daxilində hər hansı şəxsin sifarişi əsasında qeyri-müntəzəm marşrut üzrə yerinə yetirilir.

Taksi minik avtomobilləri ilə sərnişin daşımalarını yerinə yetirən daşıycı sifariş gözləyərkən yalnız avtonəqliyyat vasitələri üçün müəyyən olunmuş dayananacaqlardan istifadə etməlidir.

Taksi minik avtomobilləri ilə sərnişin daşımalarının xüsusiyyətləri “Avtomobil nəqliyyat ilə sərnişin və baqaj daşınmması Qaydaları” ilə müəyyən olunur.

## *Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarının sifarişi*

Avtomobil nəqliyyatı ilə müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının təmin olunması məqsədilə Azərbaycan Respublikasıın müvafiq icra hakimiyyəti orqanı tərəfindən marşrut şəbəkəsi müəyyənləşdirilir və dövlət sifarişi formalaşdırılır.

Daşıyıcılar avtomobil nəqliyyatı ilə müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının yerinə yetirilməinə sifarişçinin keçirdiyi müsabiqə əsasında cəlb olunurlar.

Sifarişçi müsabiqəyə müntəzəm avtobus marşrutlarını və ya daşımaların intensivliyini, həmçinin rentabelliyini nəzərə alaraq marşrutların müvafiq reyslərini çıxarır.

Müsabiqənin qalibləri müntəzəm marşrutlar və ya marşrutların müəyyən reysləri üzrə sərnişin daşıma xidmətləri göstərmək hüququnu əldə edirlər.

Sifarişçi müsabiqənin qalibinin maddi-texniki bazasını nəzərə alaraq hər bir şəhərdaxili(rayondaxili), şəhərlərarası (rayonlarası) marşruta dair 5 ilədək, lakin 3 ildən az olmayan müddətə, beynəlxalq marşruta dair isə 3 ilədək, lakin 1 ildən az olmayan müddətə müvafiq marştrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə bağlanır.Müsabiqənin qalibi olan daşıyıcı dövlət sifarişi əsasında sərnişin daşımaları yerinə yetirə bilmədikdə yaxud lazımı qaydada yerinə yetirmədikdə və ya onunla bağlanmış müqavilənin digər şərtlərini pozduqda sifarişçi həmin müqaviləni birtərəfli qaydada vaxtından əvvəl ləğv etmək hüququna malikdir.

## *Nəqliyyat sənədləri*

Sərnişin və ya yük daşımalarının yerinə yetirilməsi üçün tələb edilən sənədlərin forması və rəsmiləşdirilməsi qaydası müvafiq olaraq “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” və “Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları” ilə müəyyən olunur.

Sərnişin və ya yük daşınması məqsədilə avtonəqliyyat vasitəsindən istifadə edilməsi müvafiq formada tərtib edilən yol vərəqəsi ilə rəsmiləşdirilir.

Müntəzəm maşrut üzrə sərnişin daşımaları yerinə yetirilərkən hər bir sərnişin gediş sənədinə (biletə), baqaj ödəniş əsasında daşındıqda isə, həmçinin onun daşınma haqqının ödənildiyini təsdiq edən sənədə (baqaj qəbzinə) malik olmalıdır.Müvafiq gediş sənədinin (biletin) satışını və sərnişinin baqajının daşınma haqqının ödənildiyini təsdiq edən sənədin verilməsini daşıyıcı və ya avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı təmin etməlidir.

Qeyri-müntəzəm sərnişin daşınması müvafiq formada tərtib edilən formulyar (sərnişinlərin siyahısı) ilə rəsmiləşdirilə bilər.

Avtomobil nəqliyyatı ilə yüklərin daşınması əmtəə-nəqliyyat qaiməsi və ya sifariş-tapşırıq ilə rəsmiləşdirilir.Həmin sənəd yükün daşındığı müddət ərzində sürücüdə saxlanılmalıdır.

## *Avtomobil nəqliyyatı ilə daşımaların marşrutu*

Avtomobil daşıyıcısı sərnişinləri və ya yükü müvafiq avtonəqliyyat vasitəsi üçün daşımanın sifarişçi tərəfindən müəyyən olunmuş marşrut üzrə daşımalıdır.Marşrut müəyyən edilmədikdə avtomobil daşıyıcısı sərnişinləri və ya yükü ən qısa marşrut üzrə daşımalıdır.

Daşımanın daha uzun marşrutla yerinə yetirilməsi məqsədə uyğun olduqda, avtomobil daşıyıcısı həmin marşrutu daşımanın sifarişçi ilə əvvələdən razılaşdırılmalıdır.

Avtomobil nəqliyyatı ilə sərnişin daşımaları üzrə müntəzəm marşrutların müəyyən edilməsi və rəsmiləşdirilməsi qaydası “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” ilə müəyyən olunur.

## *Avtonəqliyyat vasitələrinin daşınmanın sifarişçisinə təqdim olunması*

Daşıyıcı sərnişin və ya yük daşımalarının yerinə yetirilməsi üçün yararlı və saz vəziyyətdə olan avtonəqliyyat vasitəsini sifarişçiyə təqdim etməlidir.

Avtonəqliyyat vasitəsinin avtomobil daşınmasının sifarişçisinə təqdim edilməsi vaxtı avtonəqliyyat vasitəsinin sifarişçinin müəyyən etdiyi məntəqəyə gəldiyi və sürücü tərəfindən daşınmanın yerinə yetirilməsi üçün tələb edilən sənədlərin təqdim olunduğu vaxtdan hesablanır.

Avtomobil daşınmasının sifarişçisinə müqavilə şərtlərinə uyğun olmayan və ya müvafiq avtomobil daşınmasının yerinə yetirilməsi üçün yararsız hesab etdiyi avtonəqliyyat vasitəsindən imtina etmək hüququna malikdir.Bu halda avtonəqliyyat vasitəsi sifarişçiyə təqdim olunmamış hesab edilir.

## *Avtomobil nəqliyyatı ilə daşımaların sığortalanması*

Avtomobil nəqliyyatı ilə daşımalar yerinə yetirilərkən icbari və ya könüllü sığorta tətbiq olunur.

Avtomobil nəqliyyatı ilə daşınan sərnişinlər "Sərnişinlərin icbari sığortası haqqında" Azərbaycaan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada icbari sığorta olunmalıdır.

Yol-nəqliyyat hadisələri nəticəsində şəxslərin sağlamlığına və əmlakına vurulmuş zərərə görə avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası "Azərbaycan Respublikasında nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aparılır.

Sərnişinlərin, avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsi ilə əlaqədar olan heyət üzvlərinin həyatının, sağlamlığının və əmlakının, baqajın, yükün, avtonəqliyyat vasitəsinin və kommersiya risklərinin, habelə daşıyıcının məsuliyyətinin sığortalanması müvafiq sığorta müqavilləri əsasında həyata keçirilir.

## *Avtomobil nəqliyyatı ilə daşımaların təhlükəsizliyinin və ətraf mühitin mühafizəsinin təmin olunması*

Avtomobil nəqliyyatı ilə daşımaların təhlükəsizliyinin təmin olunması aşağıdakı istiqamətlər üzrə tədbirlərin keçirilməsini nəzərdə tutur:

Avtomobil nəqliyyatının təhlükəsiz və davamlı fəaliyyətinin, habelə ətraf mühitin müfafizəsinin təmin olunmasına yönəlmiş nəzarət, idarəetmə və hüquqi tənzimləmə;

Yol hərəkət təhlükəsizliyinin təmin olunmasına yönəlmiş proqramların hazırlanması və icrası;

Sərnişin və yük daşımaları ilə məşğul olan hüquqi və fiziki şəxslər daşımaların təhlükəsiz yerinə yetirilməsinə, ətraf mühitin mühafizəsinə dair Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının tələblərinə riayət etməlidirlər.

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar sərəncamlarında olan avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasını, sürücülərin reysqabağı tibbi müayinəsini müvafiq icra hakmiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada təşkil etməlidirlər.

Azərbaycan Respublikasının icra hakimiyyəti orqanı mövcud normativ hüquq aktlar, texniki qaydalar və təlimatlar əsasında avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının təhlükəsizliyinə, habelə bu daşımalarda istifadə edilən avtonəqliyyat vasitələrinin istismarına və saxlanımasına nəzarəti təmin edir.

## *Sərnişin avtomobil nəqliyyatı vasitələrinin sürücülərinə dair tələblər*

Avtobuslarla sərnişin daşımalarına "D" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 21-dən və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi üç ildən az olmayan sürücülər buraxılır.

Taksi minik avtomobilləri sərnişin daşımalarına "B" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan, yaşı 19-dan və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi bir ildən az olmayan sürücülər buraxılır.

Ümumi istifadədə olan sərnişin avtonəqliyyat vasitələrinin, o cümlədən taksi minik avtomobillərinin sürücüləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən peşə fəaliyyətinə və davranışa dair təsdiq olunmuş xüsusi proqram üzrə hazırlıq keçməli, habelə avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlar barədə zəruri biliklərə malik olmalıdırlar.

## *Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi*

Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsinə görə daşıyıcı, sərnişinin və onun baqajını yola düşmə yerindən təyinat məntəqəsinə çatdırmağı, sərnişin isə daşınma haqqını ödəməyi öhdəsinə götürür.

Müntəzəm marşrutlar üzrə avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsinin bağlanması sərnişinə verilmiş bilet və baqaj qəbzi ilə təsdiq olunur.

Gediş sənədinin (biletlərin) sərnişinlərə satışı daşıyıcı və ya avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı tərəfindən təşkil edilə bilər.

Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsinin bağlanması qaydası Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

## *Sərnişin avtonəqliyyat vasitəsinin icarəsi (fraxtetmə) müqaviləsi*

Sərnişin daşınması icarə (fraxtetmə) müqaviləsi əsasında yerinə yetirildikdə, daşıcı hüquqi və ya fiziki şəxslərin sifarişçisinə əsasən bir və ya bir neçə avtonəqliyyat vasitəsini haqqı sifarişçi tərəfindən ödənilmək şərti ilə bir və ya bir neçə reys üçün onlara təqdim etmək öhdəliyini üzərinə götürür.

Sərnişin avtonəqliyyat vasitələrinin icarəsi (fraxtetmə) müqaviləsinin bağlanması qaydası Azəbaycan Respublikasının müvafiq hüquqi aktları ilə müəyyən edilir.

## *Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilə*

Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilə əsasında daşımanın təşkilatçısı sifariçinin tapşırığı ilə və onun hesabına sərnişinin və onun baqajının özü tərəfindən və ya üçüncü şəxslər (avtomobil nəqliyyatı ilə daşıyıcılar) vasitəsilə təyinat məntəqəsinə çatdırılmasını təşkil edir.

Müntəzəm və qeyri-müntəzəm marşrutlarda nəqliyyatı ilə sərnişin daşımalarının yerinə yetirilməsi üçün hüquqi və fiziki şəxs (daşınmanın sifarişçisi) daşıyıcı və ya daşınmanın təşkilatçısı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilə bağlaya bilər.

Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilənin əsasında sərnişin daşınması müqaviləsi bağlanıla bilər.

## *Sərnişinin əsas hüquqları*

Sərnişin aşağıdakı əsas hüquqlara malikdir:

Marşrut üzrə gediş bileti əldə etmək, avtonəqliyyat vasitəsinin salonunda biletdə göstərilmiş yeri biletdə yer göstərilmədikdə isə boş yeri tutmaq və gedişi həyata keçirmək;

Müntəzəm avtobus marşrutlarında ayrıca yer tutmadan, gediş haqqı ödəmədən 5 yaşına qədər bir uşağı özü ilə aparmaq;

Müvafiq normalar həddində özü ilə ödənişsiz əl yükünü aparmaq;

Çəkisi və ölçüləri müəyyən edilmiş normalardan artıq olmayan baqaj aparmaq;

Real dəyərindən yüksək olmamaqla baqajın qiymətini elan etmək;

Daşınma üçün təqdim olunan avtonəqliyyat vasitəsilə gediş tarifi alınmış gediş sənədinin (biletin) qiymətindən yüksək olarsa, gedişi əvvəl əldə olunmuş gediş bileti ilə əlavə pul ödəmədən həyata keçirmək;

Daşıyıcı daşınma haqqı sərnişinin aldığı gediş sənədinin (biletin) qiymətinə nisbətən aşağı olan avtonəqliyyat vasitəsi istifadə edərsə, gediş sənədini (bilet) qaytarmaq və ya gediş üçün faktiki ödədiyi məbləğlə bu halda ödənilməli məbləğ arasındakı fərqi geri alaraq həyata keçirmək;

“Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” ilə müəyyən olunmuş qaydada gediş sənədini (bileti) geri qaytarmaq və ödənilmiş pulun tam məbləğini və ya müvafiq hissəsini geri almaq;

Daşıyıcının təqsiri üzündən vurulmuş zərərə və ziyana görə kompensasiya almaq.

## *Sərnişinin əsas vəzifələri*

Sərnişinin əsas vəzifələri aşağıdakılardır:

“Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”na, habelə sərnişin daşımalarını tənzimləyən digər normativ hüquqi aktların tələblərinə riayət etmək, daşıyıcı ilə bağlanmış müqavilənin şərtlərini yerinə yetirmək;

Öz təqsiri üzündən daşıyıcıya və digər şəxslərə vurulmuş zərərin əvəzini ödəmək;

Gediş sənədini (bileti) almaq, gediş haqqını vaxtında və tam həcmdə ödəmək və gediş müddətində gedişə hüquq verən müvafiq sənədlərə malik olmaq;

Müəyyən edilmiş hallarda baqaj və əl yükünün daşınmasına görə daşınma haqqını ödəmək.

## *Avtomobil nəqliyyatı ilə sərnişin daşımalarının yerinə yetirilməsi ilə əlaqədar daşıyıcının əsas hüquqları*

Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən daşıyıcı aşağıdakı əsas hüquqlara malikdir:

"Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının və daşınma şətlərinə riayət edilməsini sərnişindən tələb etmək;

Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasına görə daşınma haqqını almaq;

Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, daşınma haqqını təyin etmək

Sərnişinin təqsiri üzündən vurulmuş zərərin ödənilməsini Azərbaycan Respublikasının normativ hüquqi aktlarına və müqavilə şərtlərinə uyğun olaraq ondan tələb etmək;

Bu Qanunun 36-cı maddəsində nəzərdə tutulmuş hallarda sərnişin daşınması üzrə müqavilə öhdəliklərinin yerinə yetirilməsindən imtina etmək;

"Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" ilə nəzərdə tutukmuş digər hüquqlara malik olmaq.

## *Avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını yerinə yetirən daşıyıcının əsas vəzifələri*

Avtomobil nəqliyyatı ilə sərnişin daşımalarının yerinə yetirilməsi ilə əlaqədar daşıyıcının əsas vəzifələri aşağıdakılardır:

Sərnişin və baqaj daşımalarını "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"na, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərini uyğun olaraq yerinə yetirmək;

Sərnişinlərin hüquqlarının təmin olunmasını və Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş hallarda və qaydada sərnişinlərin icbari sığortlanmasını təşkil etmək;

Daşımanın şərtləri və yerinə yetirilməsi qaydaları haqqında sərnişinlərə zəruri məlumatlar vermək;

Yol hərəkətinin və daşımalarının təhlükəsizliyini təmin etmək, ekoloji və sanitar normlara riayət etmək;

Daşınma üzrə öhdəlikləri icra etmədikdə və ya lazımi qaydada icra etmədikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq sərnişinlərə vurulmuş ziyanın əvəzini və zərəri ödəmək;

Texniki və ya digər səbələrdən, o cümlədən, öz təqsiri üzündən daşınma dayandırıldıqda, öz hesabına sərnişinlərin təyinat məntəqəsinə çatdırılmasını təmin etmək;

## *Avtomobil nəqliyyatı ilə baqaj daşınması*

Daşıyıcı daşınma üçün qəbul edilmiş baqaja görə sərnişinə baqaj qəbzi verməlidir.

Daşıma başa çatdıqdan sonra baqaj sərnişinə və ya baqajı almaq səlahiyyətli olan şəxsə baqaj qəbzi təqdim edildikdə verilir.

Tələb olunmamış baqaj daşıyıcıda saxlanılır.30 gün keçdikdən sonra tələb olunmamış baqaj "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" ilə müəyyən olunmuş qaydada satıla bilər.

## *Daşıyıcının avtomobil nəqliyyatı ilə sərnişin daşınmasından imtina etməsi*

Aşağıdakı hallarda avtomobil daşıyıcısının sərnişinləri daşımaqdan imtina etmək hüququ vardır:

Sərnişin avtonəqliyyat vasitəsinə boş yer olmadıqda;

Sərnişin ictimai asayiş qaydalarını pozduqda;

Sərnişinin xəstə və ya sərxoş vəziyyətdə olması digər sərnişinlər üçün narahatlılıq yaratdıqda;

Sərnişin daşınması qadağan edilmiş əşyaların və maddələrin olduğu baqajı və ya əl yükünü aparmaq niyyətində olduqda;

Sərnişin baqajın daşınmasına görə haqqı ödəmədikdə;

Sərnişində olan gediş sənədinin (biletin) yerinə yetirilən avtomobil daşınmasına uyğunsuzluğu aşkar edildikdə;

"Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları" ilə gediş haqqının bilavasitə daşınma prosesində ödənilməsi nəzərdə tutulduğu hallarda sərnişin gediş haqqını ödəmədikdə və ya tam ödəmədikdə;

Sərnişin "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"na əməl olunması barədə sürücünün və ya digər səlahiyyətli şəxsin qanuni tələblərini yerinə yetirməkdən imtina etdikdə.

## *Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi*

Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsinə görə avtomobil daşıyıcısı yükgöndərən tərəfindən ona tapırılmış yükü təyinat məntəqəsinə çatdırmağı və onu yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə təhvil verməyi, yükgöndərən isə müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, yükün daşınmasına görə müəyyən olunmuş daşınma haqqını ödəməyi öhdəsinə götürür.

Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsinin bağlanması qaydası Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

Yük daşınması üçün avtonəqliyyat vasitəsinin icarəsi (fraxtetmə) müqaviləsi

Yük daşınması üçün avtonəqliyyat vasitəsinin icarəsi (fraxetmə) müqaviləsinə görə daşıyıcı hüquqi və ya fiziki şəxslərin (daşınmanın sifarişçinin) sifarişi ilə haqqı ödənilməklə yük daşınması üçün yararlı olan bir və ya bir neçə avtonəqliyyat vasitəsinin tutumunu bütövlükdə və ya qismən bir və ya bir neçə reys üçün digər tərəfə vermək öhdəliyini üzərinə götürür.

Yük daşınması üçün nəzərdə tutulmuş avtonəqliyyat vasitəsinin icarəsi haqqında müqavilənin bağlanması qaydası Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən edilir.

## *Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqavilə*

Avtomobil nəqliyyatı ilə mütəmadi yük daşınmasının yerinə yetirilməsi zərurəti yarandıqda, daşınmanın sifarişçisi yük daşınmasının təşkili haqqında daşıyıcı ilə uzunmüddətli müqavilə bağlaya bilər.

Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqaviləyə əsasən daşıyıcı yükü müəyyən olunmuş müddətdə qəbul etməli, yükgöndərən isə şərtləşdirilmiş həcmdə yükü daşınmaq üçün təqdim etməlidir.

*Avtomobil nəqliyyatı ilə yük daşınmasının rəsmiləşdirilməsi*

Avtomobil nəqliyyatı ilə əmtəə təyinatlı yüklərin daşınması əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirillir.Əmtəə-nəqliyyat qaiməsi ilə rəsmiləşdirilməmiş əmtəə təyinatlı yüklər daşınma üçün qəbul edilə bilməz.

Əmtəə-nəqliyyat qaiməsi Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunmuş formada tərtib edilir.Yük daşıma müqaviləsində başqa qayda nəzərdə tutulmamışdırsa, əmtəə-nəqliyyat qaiməsi yükgöndərən tərəfindən tərtib edilir.

Əmtəə-nəqliyyat qaiməsində aşağıdakılar göstərilir:

Yük alanın ünvanı;

Yükün çatdırılma yeri;

Yük yerlərinin miqdarı, qabı, tərkibi və brutto çəkisi;

Yükün göndərilmə vaxtı və avtonəqliyyat vasitəsinin növü;

Yük qiymətli obyekt olduqda-onun dəyəri;

Xüsusi təhlükəli və potensial təhlükəli yük olduqda-təhlükənin konkret növü və belə hallarda yerinə yetirməli ehtiyyat tədbirləri;

Qaimənin tərtib edildiyi yer və tarix;

Yükgöndərənin adı və ünvanı;

Daşıyıcının adı və ünvanı;

Yükləmənin yeri və tarixi;

Yük yerlərinin adı və nömrələri;

Daşımanın qiyməti (yük daşınması üçün haqq, əlavə xərlər)

Zərurə olduqda, daşımanın şərtləəri barəsində yükgöndərənin xüsusi göstərişləri;

Zəruri hallarda əmtəə-nəqliyyat qaiməsində aşağıdakı məlumatlar göstərilər bilər:

Yükün boşaldılıb başqa nəqliyyat vasitələrinə yüklənməsinin qadağan edilməsi;

Tərəflərin öz üzərinə götürdükləri və ya bir-birinə verdiyi avansın məbləğləri;

Yük alanın daşıyıcıya ödədiyi məbləğ;

Yükün dəyəri;

Yükün sığortalanmasına dair yükgöndərənin göstərişi;

Yükün daşınması üçün şərtləşdirilmiş müddətlər;

Daşıyıcıya yüklə birlikdə verilmiş sənədlərin siyahısı.

Yük daşınması müqaviləsinin tərəfləri zəruri hesab etdikləri digər məlumatları əmtəə-nəqliyyat qaiməsinə daxil edilə bilərlər.

Beynəlxalq avtomobil yük daşımaları yerinə yetirilərkən beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsi tərtib olunur.

Avtonəqliyyat vasitələrinin yüklənməəsi üçün müəyyən edilmiş normalara riayət edilməsi, habelə avtomobil nəqliyyatı ilə daşımaların təhlükəsizliyinin və yükün qorunub saxlanmasının təmin edilməsi məqsədi ilə daşıycı yükün düzgün yerləşdirilməsinə və bərkidilməsinə nəzarət etməlidir.

Daşıyıcının göstərişi ilə yükgöndərən yükün yerləşdirilməsində və bərkidilməsində yol verilmiş pozuntuları aradan qaldırılmalıdır.

Beynəlxalq daşımalar istisna olmaqla, yük daşınması üçün qapalı yük yerləri ilə tchiz edilmiş avtonəqliyyat vasitələri və ya digər nəqliyyat avadanlığı istifadə edildikdə, yükün yük göndərən tərəfindən plomblanmasına yol verilir.Bu haqda əmtəə-nəqliyyat qaiməsində müvafiq qeyd edilməlidir.Yükün plomlanması qaydası “Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları” ilə müəyyən edilir

*Yükün yükalana təhvil verilməsi*

Daşıyıcı yükü təyinat məntəqəsində yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə yük yerlərinin sayına və ya yükün ümumi çəkisinə uyğun olaraq təhvil verir.

Qalaq və ya firuş şəkildə, yaxud avtomobil sistemində daşınan yüklərdə çatışmazlıq əlamətləri yoxdursa və yükalanda bu çatışamazlığı müəyyən etmək üçün lazımı vasitələr olmadıqda, həmin yüklər ümumi çəkisi yoxlanılmadan yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə təhvil verilir.

Beynəlxalq daşımalar istisna olmaqla, qeyri-əmtəə təyinatlı yük daşındıqda, daşıyıcı onu yükalana və ya yükü almağa səlahiyyəti olan şəxsə təhvil vermək vəzifəsindən yükgöndərən tərəfindən azad oluna bilər.Bu halda daşıyıcının üzərinə həmin yükü yükgöndərən tərəfindən müəyyən edilmiş yerdə boşaltmaq vəzifəsi qoyulur.

Yükün çəkisi tərəzi vasitəsilə müəyyən edildikdə, əmtəə-nəqliyyat qaiməsində göstərilən yükün çəkisi ilə onun faktiki çəkisi arasında olan fərqi təbii azalma normasını və ya tərəzidə çəkilmə dəqiqliyini keçmirsə, daşıyıcı yükün çəkisinin fərqinə görə məsuliyyət daşımır.

Yükün təhvil alınması yükalan tərəfindən əmtəə-nəqliyyat qaiməsində imza edilməklə və yükalan möhürə (ştampa) malik olduqda, möhür (ştamp) vurulmaqla təsdiq olunur.

### *Yükalanın yükü almaqdan imtina etməsi və ya başqa ünvana çatdırılması haqda tələbi*

Yükün xarab olması və zədələnməsi ilə əlaqədar xüsusiyyətlərini dəyişməsi nəticəsində ondan təyinatı üzrə tam və ya qismən istifadə etmək mümkün olmadıqda, yükalan yükü almaqdan imtina edə bilər.

Yükalan yükü almaqdan imtina, yaxud onun başqa ünvana çatdırılmasını tələb etdikdə, bu haqda əmtəə nəqliyyat qaiməsində müvafiq qeyd etməlidir.

Yükalan yükü almaqdan imtina etdikdə, müqavilədə digər hal nəzərdə tutulmamışdırsa daşıyıcı bu yük barəsində yükgöndərənin yazılı göstərişlərini almalıdır.

Yükalan yükü almaqdan imtina etdikdə, yükün saxlanılması, satılması, yükgöndərənə geri qaytarması və ya yeni ünvana çatdırılmasına görə daşıyıcının çəkdiyi əlavə xərcləri yükgöndərən ödəməlidir.

### *Yükün yüklənməsi, çatdırılması və boşaldılması müddətləri*

Avtonəqliyyat vasitəsinin yükləmə altında olduğu müddət onun daşıyıcı tərəfindən yüklənmək üçün verildiyi vaxtdan hesablanır.

Avtonəqliyyat vasitəsinin boşaldılma altında olduğu müddət yükün boşaldılma yerində onun sürücüsü tərəfindən əmtəə-nəqliyyat qaiməsinin yükalana təqdim edildiyi vatdan hesablanır.

Yüklənən və ya boşaldılan yük barəsində lazimi qaydada rəsmilədirilmiş əmtəə-nəqliyyat qaiməsi və bütün digər zəruri sənədlər avtonəqliyyat vasitəsinin sürücüsünə təqdim edildikdə, yükləmə və ya boşaltma başa çatmış hesab olunur.

Avtonəqliyyat vasitəsinin yükləmə və boşaldılma yerlərinə gəlməsi və çıxması vaxtı barədə yükgöndərən və yükalan əmtəə-nəqliyyat qaiməsində müvafiq qeyd etməlidirlər.

Yükləmə, çatdırılma və boşaldılma müddətləri, o cümlədən yükləmə və boşaldılma ilə əlaqədar digər əməliyyatların yerinə yetirilməsi müddəti Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları, o cümlədən "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları", həmçinin avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi ilə müəyyən edilir.

### *Avtomobil nəqliyyatı ilə təhlükəli yüklərin daşınması*

Avtomobil nəqliyyatı ilə daşınmalar zamanı partlayışa və ya yanğına, insanların və ya heyvanların tələfatına, xəstələnməsinə, xəsarət almasına, zəhərlənməsinə, şüalanmasına səbəb ola bilən, habelə nəqliyyat vasitələrinin, tikililərin və digər infrastruktur obyektlərinin zədələnməsinə gətirib çıxaran və ya ətraf mühitə ziyan vurma xüsusiyyətlərinə və güclü təsirə malik maddələr, materiallar, məhsullar və tullantıılar təhlükəli yüklər hesab edilir.

Bu cür daşımalar zamanı yükgöndərən əmtəə-nəqliyyat qaiməsində təhlükəli yük barədə məlumatları göstərməlidir.

Təhlükəli yüklərin daşınması qaydası Azərbaycan Respublikası normativ hüquqi aktların tələblərinə uyğun olaraq müəyyən edilir.

### *Avtomobil nəqliyyatı ilə iriqabaritli və ağırçəkili yüklərin daşınması*

Yükünün qabaritləri və çəkisi, yaxud texniki göstəriciləri müvafiq normativlərlə müəyyənləşdirilmiş məhdudiyyətlərdən kənara çıxan avtonəqliyyat vasitələrinin ümumi istifadədə olan yollarla, o cümlədən, yaşayış məntəqələrinin küçələri ilə hərəkətinə əvvəlcədən təyin edilmiş xüsusi marşrut üzrə, müvafiq icra hakmiyyəti orqanının icazəsi əsasında yol verilir.

Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsi, onların hərəkətinə xüsusi icazənin verilmə qaydası, habelə iriqbaritli və ağırçəkili avtonəqliyyat vasitələrinin hərəkət etməsinə görə ödənişlərin dərəcələri və ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

### *Qarışıq yük daşımalarının yerinə yetirilməsi*

Ən azı iki nəqliyyat növündən istifadə edilməklə, bütün hərəkət yolu (göndərilmə məntəqəsindən təyinat məntəqəsinədək) üçün tərtib edilmiş vahid nəqliyyat sənədi əsasında yerinə yetirilən sərnişin və yük daşımaları qarışıq daşımalar hesab olunur.

Qarışıq yük daşınmasının yerinə yetirilməsi üçün daşıyıcılar üçün daşıyıcılar digər nəqliyyat növləri ilə daşıyıcılarla və ya daşımaların təşkilatçılatçıları ilə Azərbaycan Respublikasının müvafiq normativ aktlarına uyğun olaraq yük daşımalarının təmin edilməsi haqqında müqavilələr bağlayırlar.

### *Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili*

Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları, o cümlədən tranzit daşımaları Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq yerinə yetirilir.

Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları sahəsində Azərbaycan Respubikasının tərəfdar çıxdığı beynəlxalq müqavillərinin şərtlərinin Azərbaycan Respublikasının ərazisində yerinə yetirilməsini müvafiq icra hakimiyyəti orqanı aidiyyəti dövlət orqanları ilə birlikdə təmin edir.

Barəsində icazə sistemi tətbiq edilən xarici dövlətlərə yerinə yetirilən beynəlxalq daşımalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən “İcazə” blankları əsasında yerinə yetirilir

Azərbaycan Respublikasının ərazisində xarici avtomobil daşıyıcılar tərəfindən ölkədaxili daşımalarının yerinə yetirilməsinə yol verilmir.

### *Avtomobil nəqliyyatı ilə daşınma müqaviləsindən irəli gələn öhdəliklərə görə məsuliyyət*

Avtomobil nəqliyyatı ilə daşınma müqaviləsindən və daşınma ilə əlaqədar mülki qanunvericiliklə nəzərdə tutulmuş digər müqavilələrdən irəli gələn öhdəliklərin icra edilməməsinə və ya lazımı qaydada icra edilməməsinə görə müqavilə üzrə tərəflər bu Qanunla Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

Azərbaycan Respublikasının qanunvericiliyi nəzərdə tutulmuş hallar istisna olmaqa, avtomobil nəqliyyatı ilə daşınma müqaviləsi üzrə qanunvericiliklə müəyyən edilmiş məsulliyyətin məhdudlaşdırılması yaxud aradan qaldırılması barədə tərəflərin razılaşması etibarsızdır.

### *Avtonəqliyyat vasitəsinin yüklənmək üçün verilməməsinə görə daşıyıcının xüsusiyyətləri*

Avtomobil nəqliyyatı ilə daşınma müqaviləsinə uyğun olaraq avtonəqliyyat vasitəsinin yüklənmək üçün verilməməsinə və ya vaxtı-vaxtında verilməməsinə görə daşıyıcı Azərbaycan Respublikasının qanunvericliyi, habelə tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən edilmiş qaydada məsuliyyə daşıyır.

Avtonəqliyyat vasitəsinin yüklənmək üçün verilməməsi və ya vaxtı-vaxtında verilməməsi qarşısalınmaz qüvvənin təsiri və ya səlahiyyətli dövlət orqanları tərəfindən müəyyən istiqamətdə avtomobil nəqliyyatı ilə daşımaların məhdudlaşdırılması, yaxud dayandırılması nəticəsində baş verdikdə, daşıyıcı məsuliyyətdən azad olunur.

### *Yükün və ya baqajın qorunub saxlanılmasına və əl yükünün zədələnməsinə göə avtomobil daşıyıcısının məsuliyyəti*

Yükün və ya baqajın daşınma üçün qəbul edildiyi vaxtdan yükalana, sərnişinə və ya digər səlahiyyətli şəxsə təhvil verilənədək itirilməsinin, əskik çıxmasının və ya zədələnməsinin (xarab olmaının) daşıyıcının təqsiri olmadan baş verdiyi sübut edilmədikdə, daşıyıcı məsuliyyət daşıyır.

Daşıyıcı yükün və ya baqajın avtomobil nəqliyyatı ilə daşınması zamanı vurulmuş zərəri aşağıdakı miqdarda ödəyir:

Yük və ya baqaj itirildikdə, yaxud əskik çıxdıqda-müvafiq olaraq itirilmiş, yaxud əskik çıxmış və ya baqajın dəyəri miqdarında;

Yük və ya baqaj zədələndikdən (xarab olduqda)-onun dəyərinin azaldığı miqdarda, zədələnmiş yükü bərpa etmək mümkün olmadıqda isə, onun tam dəyəri miqdarında;

Qiyməti elan olunmaqla avtomobil nəqliyyatı ilə daşınmaq üçün təhvil verilmiş yük və ya baqaj itirildikdə-həmin yük və ya baqajın qiyməti miqdarında.Daşıyıcı həmin yükün və ya baqajın həqiqi dəyərinin elan olunmuş qiymətdən aşağı olduğunu sübut etdikdə isə-yükün və ya baqajın həqiqi dəyəri miqdarında.

Qeyri-əmtəə təyinatlı yüklərin, o cümlədən torpaq və qar kütləsinin, məişət və digər tullantıların daşınması ölçmə aktı və ya tərəzidə çəkmə aktı ilə rəsmiləşdirilə bilər. Bu cür aktların tərtib edilməsi, habelə qeyri-əmtəə təyinatlı yüklərin qəbul edilməsi və təhvil verilməsi qaydası "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" ilə müəyyən edilir.

### *Yük müşayiətedici digər sənədlər*

Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş yük müşayiətedici digər sənədlər tələb olunduğu hallarda (uyğunluq sertifikatı, baytarlıq və

fitosanitar sertifikatı, malın mənşə sertifikatı) əvvəlcədən rəsmiləşdirilərək yükgöndərən tərəfindən əmtəə-nəqliyyat qaiməsinə əlavə olunmalıdır.

Daşıycı yük müşayiətedici əlavə sənədlərin düzgünlüynü yoxlamaq vəzifəsini daşımır.

Yük müşayiətedici əlavə sənədlərdən lazımi qaydada istifadə etmədikdə və ya həmin sənədlər itirildikdə əmlak məsuliyyəti daşıyıcının üzərinə qoyulur.

## *Yükün daşınma üçün hazırlanması və təqdim edilməsi*

Avtonəqliyyat vasitəsi daşıyıcı və ya daşımanın təşkilatçısı tərəfindən təqdim edilənədək yük göndərən yükü yüklənmə üçün hazırlamalı və müəyyən olunmuş tələblərə uyğun olaraq onu daşınma üçün təqdim etməlidir.

"Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nın tələbləri və avtomobil daşınması müqavilərinin şərtləri pozulmaqla daşınma üçün təqdim edilmiş yük təqdim edilməmiş hesab olunur.Bu halda yük göndərən yük daşınması müqaviləsinə və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq avtonəqliyyat vasitəsinin yüklənmək üçün təqdim edilməsi ilə bağlı daşıyıcıya vurulmuş zərəri ödəməlidi.

Yükgöndərənin yükü onun həqiqi dəyərindən artıq olmayan məbləğdə elan olunmuş qiymətlə daşınmaq üçün təqdim etmək hüququ vardır.

Müxtəlif növ yüklərin daşınma üçün hazırlanması və təqdim edilməsi qaydası "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilir.

## *Yükün daşınma üçün qəbul edilməsi*

Daşıyıcı yükü daşınma üçün qəbul edərkən əmtəə-nəqliyyat qaiməsinin rəsmiləşdirilməsinin düzgünlüyünü, yükün xarici görünüşünü, onun qablaşdırılmasını, yükün sayını və zəruri hallarda onun temperaturunu yoxlamalıdır.

Sistem və konteynerlərdə yaxud qala və füruş şəkildə olan yüklər daşınma üçün qəbul edildikdə, onların ümumi çəkisi müəyyən edilməsi və əmtəə-nəqliyyat qaiməsində göstərilməlidir.

Yükün ümumi çəkisi və yük yerlərinin sayı yükgöndərən və daşıyıcı tərəfindən birlikdə müəyyən edilir və yoxlanılır.

Müxtəlif növ yüklərin ümumi çəkisinin müəyyən edilməsi qaydası "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları" ilə müəyyən edilir.

Sürücü tərəfindən əmtəə-nəqliyyat qaiməsinin imzalanmış nüsxəsi yükgöndərənə verildikdən sonra yük daşınma üçün qəbul edilmiş hesab olunur.

Əmtəə-nəqliyyat qaiməsinə müvafiq qeydlər edilməmişdirsə, daşınma üçün qəbul etdiyi anda yük və onun qablaşdırılması lazımi vəziyyətdə, yükün ümumi çəkisi, yük yerlərinin sayı və markalanması isə əmtəə-nəqliyyat qaiməsində olan göstəricilərə uyğun olduğu kimi hesab edilir.

Yük daşınması müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, yükləmə yükgöndərən tərəfindən həyata keçirilir.

Yükün və ya baqajın həqiqi dəyərinin müəyyən edilməsi üçün onların daşınma müqaviləsində yaxud hesablaşma sənədində göstərilmiş qiyməti əsas götürülür.

## *Sərnişin avtonəqliyyat vasitəsinin yola düşməsinin ləngidilməsi və ya təyinat məntəqəsinə çatmasınının gecikdirilməsinə görə avtomobil daşıyıcısının məsuliyyəti*

Avtobusun yola düşməsinin, yaxud təyinat məntəqəsinə çatmasının gecikdirilməsinin (şəhərdaxili daşımalar istisna olmaqla) qarşısalınmaz qüvvənin təsiri nəticəsində və ya daşıyıcıdan asılı olmayan digər səbəblərdən baş verdiyi sübut olunmadıqda, daşıyıcı “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” ilə müəyyən olunmuş qaydada və məbləğdə sərnişinə dəbbə pulunu ödəyir.

Avtonəqliyyat vasitəsinin ləngiməsi səbəbindən sərnişinin daşımada imtina etdiyi hallarda daşıyıcı (avtomobil nəqliyyatı ilə daşımaların təşkilatçısı) daşınma haqqın tam məbləğdə sərnişinə geri qaytarmalıdır.

### *Sərnişinin həyatına və ya sağlamlığına vurulmuş zərərə görə avtomobil daşıyıcısının məsuliyyəti*

Avtomobil nəqliyyatı ilə daşımalar yerinə yetirilərkən sərnişinlərin həyatına və ya sağlamlığına vurulmuş zərərin qarşısalınmaz qüvvənin təsiri və ya zərərçəkənin təqsiri nəticəsində baş verdiyini sübut edə bilmədikdə, daşıyıcı vurulmuş zərərə görə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq maddi məsuliyyət daşıyır.

Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsində sərnişinin həyatına və ya sağlamlığına vurulmuş zərərə görə daşıyıcının daha yüksək maddi məsuliyyəti nəzərdə tutula bilər.

### *Avtomobil nəqliyyatı ilə daşımaların yerinə yetirilməsi ilə əlaqədar sifarişçinin daşıyıcı qarşısında məsuliyyəti*

Daşımanın sifarişçisi avtomobil nəqliyyatı ilə daşınma müqaviləsinin şərtlərinin pozulmasına, təqdim edilmiş avtonəqliyyat vasitəsindən vaxtı-vaxtında istifadə edilməməsinə görə daşıyıcı qarşısında müvafiq qanunvericiliklə və tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Yük müşayiətedici sənədlərdə göstərilmiş düzgün olmayan, qeyri-dəqiq yaxud dolğun olmayan məlumatlarla əlaqədar və ya zəruri yük müşayiətedici sənədlərin olmaması daşıyıcıya və üçüncü şəxslərə vurulmuş zərərə görə məsuliyyəti yükgöndərən daşıyır.

Avtomobil nəqliyyatı ilə daşınma müqaviləsi üzrə öhdəliklərin icra edilməməsi və ya lazımı qaydada icra edilməməsi qarşısalınmaz qüvvənin təsiri, müəyyən istiqamətlərdə daşımaların dayandırılması, yaxud məhdudlaşdırılması səbəbindən, habelə ondan asılı olmayan digər hallarda baş verdikdə, sifarişçi məsuliyyətdən azad olunur

### *Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları ilə əlaqədar pretenziya və iddialar*

Müqavilənin tərəfləri avtomobil nəqliyyatı ilə daşımalarla bağlı məhkəmədə iddia qaldırmazdan əvvəl “Avtomobl nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları” və “Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları” ilə müəyyən edilmiş qaydada və müddətlərdə pretenziya verməlidirlər.

Avtomobil nəqliyyatı ilə yük daşınması müqavilələrdən irəli gələn tələblər üzrə iddia müddəti 1 ildir.

Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqavilələrindən irəli gələn tələblər üzrə iddia müddəti 6 aydır.

### *Yük daşınması müqaviləsi*

Yük daşınması müqaviləsinə görə daşıyıcı əşyaları haqq (yüklərin daşınması üçün haqq) müqabilində olduqları yerdən təyinat yerinə daşımağı (yola salmağı), yola salan və ya yükü alan isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür.

Əgər bu Məcəllənin bu paraqrafının aşağıdakı müddəalarından ayrı qayda irəli gəlmirsə, yük daşınması müqaviləsinə tapşırıq haqqında göstərişlər tətbiq edilir.

Yük göndərən və yük alan

Yük göndərən daşımanın təşəbbüsçüsü olan və daşıyıcı ilə müqavilə bağlayan şəxsdir.Yük göndərən həm yükün daşımadan əvvəl olduğu şəxs, həm də yükün göndərildiyi şəxs (yük alan) ola bilər.

## *Eskpeditor.Nəqliyyat komisyonçusu*

Ekspeditor üçüncü şəxslər (daşıyıcılar) vasitəsilə yüklərin ilkin yerindən təyinat yerinə daşınmasını öz adından, lakin yük göndərənin hesabına təşkil edən şəxsdir.

Daşıyıcılar ilə münasibətlərdə ekspeditor yük göndərənin hüquq və vəzifələrinə malikdir.

Eskpeditor yük göndərənin göstərişlərinə əməl etməlidir.O, daşıyıcıları öz məsuliyyəti ilə seçir.Əgər ekspeditor daşımanı tamamilə və ya qismən özü həyata keçirirsə, daşıyıcının hüquq və vəzifələrinə malik olur.Əgər bir neçə yük göndərənin əşyalarının aralıq və son təyinat yerləri eynidirsə, ekspeditor bu əşyaları qruplaşdırıraq yığma nəqliyyat təşkil edə bilər.Bütün hallarda o, yük göndərənin mənafelərini qorumalı və göstərişlərinə əməl etməlidir.O qarşıya çıxan bütün çətinliklər barəsində yük göndərənə məlumat verməlidir.

Ekspeditor öz xidmətləri üçün muzd almaq və yük göndərən üçün çəkdiyi xərclərin əvəzinin ödənilməsi hüququ vardır.Ekspeditorun muzdu xüsusən aşağıdakılardan ibarət ola bilər:

Daşıyıcıların muzdlarının məbləğindən faiz dərəcəssi (komisyon muzdu);

Daşımanın dəyəri və ekspeditorun muzdu da daxil olmaqla, əvvəlcədən axıradək bütün daşıma xərcləri üçün muzd

Eskpeditor yük göndərənin göstərişlərindən bütün kənarçıxmalar üçün onun qarşısında məsuliyyət daşıyır.Ekspeditor daşıyıcıların təqsiri üçün də məsuliyyət daşıyır amma daşıyıcıları seçərkən lazımi vicdanlılıq göstərdiyini sübuta yetirdiyi hallar istisna təşkil edir.

## *Yük göndərənin zəruri məlumatları*

Yük göndərən daşıyıcıya aşağıdakıları dəqiq göstərməlidir:

Yük alanın ünvanı;

Çatdırılma yeri;

Yük yerlərinin miqdarı,qabı, tərkibi və brutto çəkisi;

Göndərmə müddəti və nəqliyyat növü;

## *Sərnişin daşınması müqaviləsi*

Sərnişin daşınması müqaviləsinə görə daşıyıcı müəyyən nəqliyyat növü ilə sərnişini, habelə onun əl yükünü yola düşmə yerindən təyinat yerinə çatdırmağı, sərnişin isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür.

Sərnişin daşınması müqaviləsi sərnişinin daşıyıcıdan sərnişin daşınması üçün nəqliyyat sənədi (gediş bileti) aldığı andan və ya daşıyıcının razılığı ilə sərnişinin nəqliyyat vasitəsində yer tutması nəticəsində bağlanmış sayılır.

Əgər bu Məcəllənin bu paraqrafından ayrı qayda irəli gəlmirsə, sərnişin daşınması haqqında müqaviləyə tapşırıq müqaviləsi haqqında göstərişlər tətbiq edillir.

### *Sərnişin daşınmasının qiyməti*

Əgər daşıma üçün müəyyən qiymət təyin edilməyibsə, daşımanın tarif qiyməti, tarif olmadıqda isə həmin nəqliyyat vasitəsində gediş üçün daşımanın müvafiq hissəsində tutulan adi haqq sayılır.

Daşımanın dəyəri daşıyıcının tələbi ilə, lakin ən geci sərnişin nəqliyyat vasitəsindən düşənədək ödənilməlidir.

### *Sərnişinin başqa şəxslə əvəz edilməsi*

Daşıma başlayanadək sərnişin gedişdə onun əvəzinə başqa şəxsin (üçüncü şəxsin) iştirak etməsini xahiş edə bilər. Əgər üçüncü daşımanın xüsusi tələblərinə uyğun gəlmirsə və ya onun iştirakına qanuni göstərişlər mane olursa, daşıyıcı onun iştirakına etiraz edə bilər.Daşıyıcı sərnişindən üçüncü şəxsin gedişi ilə əlaqədar yaranmış əlavə xərclərin əvəzini ödəməyi tələb edir.

### *Sərnişin daşınması müqaviləsinin daşıma başlayanadək ləğvi*

Daşıma başlayanadək istənilən vaxt sərnişin müqavilənin ləğv olunduğu bəyan edə bilər.Müqavilənin ləğvi ilə daşıyıcı şərtləşdirilmiş haqqı almaq hüququnu itirir.Lakin o, ağlabatan kompensasiya tələb edə bilər.Kompensasiyanın miqdarı daşıyıcının qənaət etdiyi xərclərin və gediş hüququnu başqa şəxsə satmaqdan əldə edə biləcəyi gəlirin dəyəri çıxılmaqla gedişin dəyəri ilə müəyyənləşdirir.

Adətən qənaətedilən xərclər və gedişin başqa şəxslərə satılması nəticəsində adətən əldə olunan mümkün gəlir nəzərə alınmaqla, müqavilədə hər nəqliyyat növü üçün kompensasiya kimi daşımanın dəyərindən faiz dərəcəsi müəyyənləşdirilə bilər.

### *Sərnişin daşınmasının həyata keçirilməsi və daşıyıcının məsuliyyəti*

Daşıyıcı daşımanın müqaviləyə, sərnişinlərin müdafiəsi üçün qüvvədə olan göstərişlərə və sərnişin nəqliyyat vasitələrinin istismarı qaydalarına uyğun həyata keçirməlidir.Əgər daşıma müqaviləsində xüsusi müddəalar yoxdursa, adi nəqliyyat növləri üçün yolun həmin hissəsində qüvvədə olan adi şərtlər razılaşdırılmış şərtlər sayılır.Əgər daşıma bu tələbləri təmin etmirsə, qüsurla həyata keçirilmiş sayılır.

Daşıma hər hansı qüsurla həyata keçirildikdə, sərnişinin, əgər o, həmin qüsur barəsində dərhal daşıyıcıya bildiriş vermişsə və daşıyıcı qüsuru dərhal aradan qaldırmamışsa, aşağıdakı hüquqları vardır:

Daşımanın dəyərinin ağlabatan dərəcədə aşağı salınmasını tələb etmək;

əgər daşıma qüsur nəticəsində xeyli pisləşmissə və ya bu qüsura görə daşıyıcı üçün aşkar olan vacib əsaslar üzrə sərnişinə məğbul deyildirsə, gələcək üçün daşıma müqaviləsinin ləğv olunduğunu bəyan etmək.

Əgər müqavilə Məcəllənin 846.2.2-ci maddəsinə uyğun ləğv edilərsə, sərnişin özünü təhlükəyə məruz qoymayacağı ən yaxın yerdə nəqliyyat vasitəsini tərk edə bilər.Bu halda daşıyıcı daşımanın şərtləşdirilmiş dəyərinin daşımanın icra edilməmiş hissəsinə uyğun

qismini almaq hüququnu itirir.Əgər göstərilmiş nəqliyyat xidmətləri müqavilənin ləğvi nəticəsində sərnişin üçün maraq doğurmursa, daşıyıcı daşımanın qalıq dəyərini almaq hüququnu da itirir.

Əgər daşıyıcıya bildirilmiş daşıma qüsuru da daşıyıcının cavabdeh olduğu hallardan bildirilmiş daşıma qüsuru daşıyıcının olduğu hallardan irəli gəlmişdirsə, sərnişin daşıma müqaviləsinin icra edilməməsi nəticəsində dəyən zərər üçün əlavə kompensasiya tələb edə bilər.

*Yük daşıyıcısının məsuliyyəti*

Yükün itirildiyi və ya məhv olduğu, halda daşıyıcı onun tam dəyərini ödəyir.Əgər yük daşıyıcı tərəfinfən daşımaya qəbul edildikdən sonra üç ay ərzində çatdırılmazsa, əksi sübut edilənədək itirilmiş sayılır.

Bundan başqa daşıyıcı çatdırmanın gecikdirilməsi və ya yükün zədələnməsi və ya qismən məhv olması ilə bağlı bütün zərər üçün məsuliyyət daşıyır.

Əgər daşıyıcı yükün itirilməsinin və ya məhvinin aşağıdakılar nəticəsində baş verdiyini sübuta yetirərsə, bu Məcəllənin 859.1-859.2-ci maddələrində nəzərdə tutulan məsuliyyət tətbiq edilmir:

Risk məlum olsa da, yükün xarakteri və ya nəqliyyat vasitəsinin birbaşa təyinatı:

Yük göndərənin və ya yük alanın təqsiri və ya göstərişi;

Daşıyıcının lazımı vicdanlılığı şəraitində qarşısını alınması mümkün olmayan hallar

Daşıyıcı daşımanı tamamilə və ya qismən başqa daşıyıcının vasitəsilə həyata keçirdiyi halda da məsuliyyət daşıyır.Onun daşıma üçün yükü verdiyi daşıyıcıya qarşı reqres hüququ saxlanılır.

Daşıyıcıya qarşı bütün iddialar yük qeyri-şərtsiz qəbul edildikdən və ödənildikdən ödənillir.Bu müddəda aşağıdakı hallarda tətbiq edilmir:

Daşıyıcıya qəsd və ya kobud ehtiyyatsızlılıq üçün məsuliyyət daşıyırsa;

Əgər iddialar yükün zahirən görünən zədələrinə əsaslanarsa, yük alan bunları şərait nəzərə alınmaqla onun üçün mümkün və yolverilən müddət ərzində aşkar etdikdə və bu barədə daşıyıcıya zədələr aşkar edildikdən sonra dərhal, lakin çatdırılmadan ən geci səkkiz gün keçənədək bildiriş verdikdə.

*Yükə girov hüququ*

Daşıyıcı ona çatası daşıma haqqına və xərclərin kompensasiyasına əsasən yükə girov hüququna malikdir.Yükə girov hüququnun əldə edilməsinə bu Məcəllənin 182-ci maddəsinin müddəaları şamil edilir. Yük göndərənin yükün mülkiyyətçisi olmadığı, lakin həmin yük barəsində yük göndərənin yükün mülkiyyətçisinindən sərəncam vermək səlahiyyəti olması ilə əlaqədar daşıyıcının vicdanlı olduğu hallarda da yükə girov hüququ əldə edillir.

Əgər daşıyıcı öz girov hüququnu həyata keçirisə, yükün çatıdırılması yalnız mübahisəli məbləğin məhkəmədə depozitə qoyulduğu halda tələb edilə bilər.Bu məbləğ fraxt verənin girov hüququ barəsində yükü əvəz edir.

*Qaimə*

Yük daşınması müqaviləsi və onun həyata keçirilməsi fornulyar şəklində tərtib edilən sənədlə (qaimə ilə) təsdiq edilir.Əksi sübuta yetirilənədək qaimə aşağıdakıları təsdiq edir:

Yük göndərən ilə daşıyıcı arasında müqavilə;

Bir və ya bir neçə daşıyıcı tərəfindən yükün daşımaya qəbul olunması;

Yük alan tərəfindən yükün qəbul edilməsi;

Müqavilə iştirakçılarından birinin bəyan etdiyi reklamasiyalar və ya qeyd-şərtlər;

Yük göndərənin və ya yük alanın yükə dair sərəncam vermək hüququ;

Daşıyıcının yükə cirov hüququ.

Qaimənin üç orijinalında yük göndərənin və daşıyıcının imzaları və ya ştempelləri olmalıdır.Qaimənin birinci nüsxəsi yük göndərənə verilir, ikinci nüsxə yükü müşayiət edir, üçüncü isə daşıyıcıya verilir.

Qaimədə aşağıdakı məlumatlar göstərilməlidir.

Bu Məcəllənin 853-cü maddəsində göstərilən məlumatlar;

Yük göndərənin adı və ünvanı;

Daşıyıcının adı və ünvanı;

Yükləmənin yeri və tarixi;

Yük yerlərinin yeri və tarixi;

Yük yerlərinin adı və nömrələri;

Daşımanın qiyməti (yük daşınması üçün haqq, əlavə xərclər)

Zərurət olduqda daşımanın şərtləri barəsində yük göndərənin xüsusi göstərişləri;

Zərurət olduqda qaimədə aşağıdakı əlavə məlumatlar da göstərilə bilər:

Yükün boşaldılıb başqa nəqliyyat vasitələrinə yüklənməsinin qadağan edilməsi;

Yük göndərənin öz hesabına qəbul etdiyi və ya yükü alana avansını verdiyi xərclər;

Yük alanın daşıyıcıya ödədiyi dəyər (yükə əlavə edilmiş, yük təhvil verilərkən icra olunmalı ödənişin məbləği);

Yükün dəyəri;

Yük göndərənin sığorta barəsində təlimatı;

Yükün daşınması üçün şərtləşdirilmiş müddətləri;

Daşıyıcıya yüklə birlikdə verilmiş sənədlərin siyahısı.

Yük göndərən qaimədəki məlumatların dəqiqliyi və tamlığı üçün daşıyıcı qarşısında məsuliyyət daşıyır.

Əgər yük göndərən bu Məcəllənin 854.3.2, 854.3.8 və ya 854.4.4-cü maddələrində nəzərdə tutulan məlumatların yanlış və ya natamam tərtib edildiyi yaxud itirildiyi halda yük daşınması müqaviləsi qüvvədə olur.Müqavilənin iştirakçıları yük daşınması haqqında şərtləşdirdikləri müqavilənin mövcudluğunu və məzmununu sübuta yarayan hər bir vasitə ilə sübut edə bilərlər.

Yük göndərən yükün lazımınca qablaşdırılmasını təmin etməlidir.O, qablaşdırmanın zahirən görünməyən qüsurları üçün məsuliyyət daşıyır.

Öz növbəsində daşıyıcı yükü daşımaya qeyd-şərtsiz qəbul edərkən mövcud olmuş zahirən görünən qüsurların nəticələri üçün məsuliyyət daşıyır.

## *Avtonəqliyyat hüquqi anlayışı, prinsipləri və sistemləri*

Hər bir ölkənin iqtisadi-təsərrüfat həyatında nəqliyyat və xüsusi yer tutur.Sənayenin, kənd təsərrüfatınının, tikintinin və digər vacib sahələrin inkişafı məhz onun səmərəli fəaliyyətindən asılıdır.Sənaye və kənd təsərrüfatı, eləcə də sənayenin ayrı-ayrı sahələri arasında əlaqə nəqliyyat vasitəsilə təmin olunur.Bu səbəbdən onu haqlı olaraq iqtisadiyyatın müxtəlif sektorlarını bir-birinə bağlayan halqa hesab edirlər.Qeyd etməliyik ki, istehsal olunmuş mallar istehsal sferasından dövriyyə sferasına nəqliyyat fəaliyyətinin

köməyi ilə hərəkət edir.Bununla nəqliyyat fəaliyyəti istehsal prosesinin dövriyyə siklində (bu sikl üçün) davamı kimi çıxış edir.

Nəqliyyat fəaliyyəti istehsal, daşıma və istehlak prosesini təmin etməyə yönəlmişdir.Belə ki, əgər maddi nemətlərin istehsalını, daşınmasını və istehlakını vahid proses hesab etsək, bu prosesdə nəqliyyat əlaqələndirici halqa rolunu oynayır.Təsadüfi deyil ki, buna görə nəqliyyat, obrazlı şəkildə yanaşsaq, ölkənin və onun iqtisadi təsərrüfat orqanizminin "qan damarları" sistemi adlanıdırılır.Nəqliyyatın köməyi ilə ilə təkcə yük deyil, həm də sərnişinlər daşınır.Sərnişinlərin məkanda yerdəyişməsi nəqliyyatın ayrı-ayrı növlərindən istifadə edilməklə baş verir və nəticədə onlar mənzil başına çatırlar.

Nəqliyyat həm də beynəlxalq iqtisadi münasibətləri təmin edir; bu münasibətlərin effektli olması və inkişaf etməsi, şübhəsiz, nəqliyyat fəaliyyətindən asılıdır.Beynəlxalq ticarət sahəsində nəqliyyat xüsusilə vacib rol oynayır.Nəqliyyat bu sahədə elə bir vasitə hesab edilir ki, bunsuz xarici ticarət fəaliyyətini həyata keçirmək qeyri-mümkündür.Çoxdan bəridir ki, nəqliyyat xarici ticarət fəaliyyətinin tənzimləyicisi rolunu yerinə yetirir. Odur ki, nəqliyyat əməliyyatları kompleks xarakterli xarici ticarət əlaqələrinin əsasını təşkil edir.Buna görə də xarici ticarət daşımalarıı nəqliyyat xidmətinin xüsusi sferası sayılır.

Son zamanlar xarici ticarət əlaqələrini təmin edən nəqliyyat bir sıra ölkələrdə sürətli templə inkişaf edir.Bu da, öz növbəsində, həm beynəlxalq ticarətin, həm də xarici iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərir.

Qeyd etmək vacibdir ki, nəqliyyat çoxcəhətli anlayışdır və o, bir neçə mənada işlədilir.Birinci mənada nəqliyyat dedikdə iqtisadiyyatın xüsusi sahəsi başa düşülür; iqtisadiyyatın xüsusi sahəsi kimi nəqliyyat müxtəlif iqtisadi sahələri bir-biri ilə əlaqələndirilən halqadır.İqtisadi fəaliyyət subyektləri (müəssisələr) öz aralarında. Rayon və ölkələr arasında nəqliyyat daşımalarını həyata keçirməklə, habelə iqtisadi əlaqələri təmin etməklə iqtisadiyyatın inkişafına mühüm təsir göstərir.

İkinci mənada nəqliyyat dedikdə xüsusi xarakterli istehsal sahəsi başa düşülür.Belə ki, nəqliyyat fəaliyyəti nəticəsində də məhsul istehsal olunur; ona nəqliyyat məhsulu deyilir.Lakin nəqliyyat maddi istehsaldan fərqli olaraq, əşya (maddi) xarakterli məhsul hazırlamır.Nəqliyyatın istehsal etdiyi məhsul nəqliyyat xidmətindən ibarətdir ki, xidmət yük, baqaj və sərnişinlərin Konvensiyası başa düşülür.Ona Hamburq Konvensiyası da deyilir.Hamburq Konvensiyası Brüssel Konvensiyasından fərqli olaraq istənilən yük daşınması müqaviləsini tənzimləyir: Brüssel Konvensiyası isə bir az əvvəldə qeyd etdiyimiz kimi, yalnız konosament daşımalarını nizama salır.Hamburq Konvesiyası həm də daşıyıcının məsuliyyətini genişləndirir.

Azərbaycan Respublikası göstərilən sənədlərdən heç birini qəbul etməmişdir.

## *Avtomobil nəqliyyatının hüquqi mənbələri*

Mülki qanunvericilikdə və sivilistika doktrinasında daşıma müqaviləsi müxtəlif meyarlara görə təsnif olunur.Nəqliyyat vasitələrinin növündən, yəni daşımaların hansı növ nəqliyyatın köməyi ilə həyata keçirilməsindən asılı olaraq, onları ayrı-ayrı növlərə bölmə daşıma müqaviləsinin əsas hüquqi təsnifi hesab edilir.Bildiyimiz kimi, hər bir dövlətin, o cümlədən Azərbaycan Respublikasının nəqliyyat sistemi özündə beş nəqliyyat növünü birləşdirir:dəmir yolu, avtomobil, dəniz, hava və daxili su (çay) nəqliyyatı.Bundan asılı olaraq daşıma müqaviləsi də beş növə bölünür:

-dəmir yolu ilə daşıma müqaviləsi;
-avtomobillə daşıma müqaviləsi;
-dəniz nəqliyyatı ilə daşıma müqaviləsi;
-hava yolu ilə daşıma müqaviləsi;
-daxili su (çay) yolu ilə müqaviləsi.

Belə bölgünün hüquqi əhəmiyyəti vardır.Məhz həmin bölgü müvafiq daşımaya nəqliyyat qanunvericiliyinin hansı sahənin tətbiq ediləcəyinin xüsusi növüdür; bununla onlar daşıma müqaviləsini mülki-hüquqi müqavilələr sistemində müstəqil müqavilə kimi tanımırlar.

Bəzi alimlər daşıma müqaviləsinə digər mülk-hüquqi müqavilələrin elementlərini birləşdirən xüsusi müqavilə kimi baxırlar.Bu müqavilələrə aiddir: tapşırıq müqaviləsi (daşıyıcı yük göndərənin tapşırığını yerinə yetirərək yükü üçüncü şəxsə-yükalana verir); podrat müqaviləsi (daşıyıcı yükü təyinat yerinə çatdırmaq kimi iş görür); saxlanc müqaviləsi (daşıyıcı yükü təyinat yerinə çatdırma halı kimi yükü saxlayır); əmlak kirayəsi müqaviləsi (daşıma vasitələrindən, yəni vaqonlardan, avtomobildən, gəmidən və.s yükgöndərənin mənafeyi üçün istifadə olunur).

Üçüncü qrup alimlər isə mülki-hüquqi müqavilələr sistemində daşıma müqaviləsini müstəqil növ müqavilə hesab edirlər.Onların fikrincə, yükdaşıma müqaviləsi mülki-hüquqi müqavilələrin müstəqil növüdür.Bu fikir hüquq ədəbiyyatı səhifələrində kifayət dərəcədə geniş yayılmışdır.

Hesab edirik ki, üçüncü qrup alimlərin mövqeyi həqiqətə daha yaxındır.Bu mövqe demək olar ki,müasir müəlliflərin əksəriyyəti tərəfindən dəstəklənir.Belə ki, daşıma müqaviləsinin iqtisadi məzmununu nəqliyyat xidmətinin özgəninkiləşdirilməsi ilə bağlı olaraq yaranan münasibətlər təşkil edir; bu münasibətlər yük daşınması müqaviləsindən başqa, hər hansı növ mülki hüquqi ilə rəsmiləşdirilə bilməz.Digər tərəfdən, daşıma müqaviləsinin əsas məqsədi daşıma prosesini həyata keçirməkdən, yəni yükün təyinat yerinə çatdırılmasını təmin etməkdən ibarətdir; daşıma müqaviləsindən başqa, digər hər hansı müqavilə belə məqsəd güdmür.Odur ki, daşıma müqaviləsi mülki-hüquqi müqavilələr sistemində yer tutur.

Sovet nəqliyyat hüququ daşıma müqaviləsini müstəqil müqavilə növü kimi tanıyırdı.Azərbaycan Respublikasının müasir nəqliyyat hüququ da daşıma müqaviləsini mülki-hüquqi müqavilələrin müstəqil növlərindən biri kimi nəzərdə tutur.

## *Daşıma müqaviləsi*

Daşıma müqaviləsi xidmət göstərilməsi üzrə müqavilələrə aiddir; çünki daşıyıcı daşıma xidməti göstərir.Xidmət göstərilməsi üçün müqavilələr bir neçə qrupa bölünür ki,həmin qruplardan biri özündə faktiki xarakterli xidmət göstərilməsi üzrə müqavilələləri birləşdirir.Daşıma müqaviləsi məhz bu müqavilələr qrupuna daxildir.Ona görə ki, daşıyıcı yük sahibinə faktiki xarakterli xidmət göstərir; həmin xidmət nəticəsində yükün təyinat yerinə çatıdırılması təmin edilir, amma heç bir mülki hüquq və vəzifə (mülki-hüquqi nəticə) yaranmır; yalnız hüquqi xarakterli xidmət nəticəsində ( məsələn, müqavilə bağlamaq və.s) mülki hüquq və vəzifələr əmələ gətirir.Şübhəsiz, yükü təyinat yerinə çatdırmaq hüquqi

deyil, faktiki xidmətdir; faktiki xidmət isə hüquqi nəticənin deyil, faktiki nəticənin yaranmasına səbəb olur.

Daşıma müqaviləsini mülki-hüquqi tənzimetmə mənbələləri. Daşıma müqaviləsinin əsas və başlıca tənzimetmə mənbəyi qanunlar hesab edilir.Qanunlar arasında, ilk növbədə, Azərbaycan Respublikasının Mülki Məcəlləsi əsas yer tutur.Ölkənin ali iqtisadi qanunu-İqtisadi Konstitusiyası (ikinci Konstitusiyası) kimi tanınan Mülki Məcəllə daşıma müqaviləsinin tənzimlənməsində vacib rol oynayır.Məcəllənin XLVI fəslinə daxil olan maddələr (842-861-ci maddələr) məhz daşıma müqaviləsinin tənzimlənməsinə həsr edilmişdir.Həmin fəslin 1-ci paraqrafındakı maddələr (842-849-cu maddələr) sərnişin daşınması müqaviləsini, 2-ci parqrafındakı maddələr isə (850-861-ci maddələr) yük daşınması müqaviləsini nizama salır.Bunlardan əlavə,daşıma müqavələsini tənzimləmək üçün mülki-hüquqi müqavilələr haqqında ümumi normalar, eləcə də öhdəlik hüququnun müddəaları da tətbiq edilə bilər.Belə ki, daşıma müqaviləsi mülki-hüquqi müqavilələrin bir növü olub daşıma öhdəlik hüquq münasibətinin (daşıma öhdəliyinin) yaranmasına səbəb olur.

Daşıma müqaviləsinin tənzimlənməsində “Nəqliyyat haqqında” Azərbaycan Respublikası Qanununun (1999) rolu və əhəmiyyəti xüsusilə qeyd edilməlidir.Qanun göstərir ki, yüklərin, sərnişinlərin və baqajın daşınması qanunvericiliyə uyğun olaraq bağlanmış müvafiq müqavilələr əsasında həyata keçirilir.(9-cu maddənin 1-ci bəndi).Şübhəsiz, daşınmasına yönəlir.Deməli, nəqliyyat hər hansı maddi əşya yaratmır, yalnız əşya (yük) və sərnişinlərin daşınmasını təmin edir.

İstehsal sahəsi kimi nəqliyyatın məhsulu olan nəqliyyat xidməti xüsusi xarakterli əmtəədir; buna görə də o,nəqliyyat bazarında alınıb satılır.Amma əmtəə kimi nəqliyyat xidmətinin istehsal prosesi zaman baxımından onun istehlak prosesi ilə üst-üstdə düşür.Belə ki, nəqliyyat müəssisəsinin (daşıyıcının) istehsal etdiyi nəqliyyat xidməti dərhal da müştərilə (yük sahibləri, sərnişinlər) tərəfindən istehlak olunur.Bu, nəqliyyat fəaliyyətinin xüsusiyyətlərindən biridir.Ona görə ki, maddi istehsal proses zaman baxımından əmtəələrin istehlak olunma prosesi ilə üst-üstə düşmür.Bildiyimiz kimi, maddi istehsal prosesində hazırlanan əmtəələr əvvəlcə müəyyən müddət ərzində nəqliyyatın köməyi ilə istehlakçılara çatdırılır, sonra isə onlar tərəfindən istehlak edilir.

Üçüncü mənada nəqliyyat dedikdə təsərrüfat fəaliyyətinin vacib növlərindən biri başa düşülür.Təsərrüfat fəaliyyətinin növü kimi nəqliyyat anlayışı özündə aşağıdakıları birləşdirir:

-dəmir yol nəqliyyatı;

-dəniz nəqliyyatı;

-hava nəqliyyatı;

-avtomobil nəqliyyatı;

-su ( çay) nəqliyyatı.

Bunlar nəqliyyatın beş əsas növüdür.Onlar hər bir ölkənin vahid nəqliyyat sistemini təşkil edir.Lakin hüquq ədəbiyyatı səhifələrində boru kəməri də nəqliyyatın növü kimi göstərilir.Lakin hüquq ədəbiyyatı səhifələrində boru kəməri də nəqliyyatın növü kimi göstərilir.Söhbət neft-qaz kəmərlərindən gedir.Azərbaycan Respublikasının nəqliyyat qanunvericiliyi məhz boru kəmərini nəqliyyatın xüsusi növü, vahid nəqliyyat sisteminin tərkib hissəsi kimi müəyyənləşdirir.Nəqliyyatın bu növü ilə neft və qazın nəql olunması həyata keçirilir.Boru kəməri nəqliyyatının özünün iki növü fərqləndirilir:

-neft boru kəməri;

-qaz boru kəməri.

Neft boru kəmərindən neft və neft məhsullarının nəql edilməsi üçün istifadə olunur.Qaz boru kəməri isə qazın nəql olunmasını təmin edir.Boru kəmərinin bu növləri özünəməxsus spesifik xüsusiyyətlər malikdir ki, həmin xüsusiyyətlər onları nəqliyyatın digər növlərindən fərqləndirməyə imkan verir.Hər şeydən əvvəl, boru kəməri ixtisaslaşdırılmış nəqliyyat növüdür; dəmir yolu, dəniz hava  və avtomobil nəqliyyat növlərindən fərqli olaraq, o, universal nəqliyyat sayılmır.Lakin, bu boru kəməri nəqliyyatının işinin iqtisadi göstəricilərinə heç də mənfi mənada təsir göstərmir.Əksinə, boru kəmərinin ixtisaslaşdırılmış nəqliyyat olması onun yaxşı iqtisadi göstəricilərlə fəaliyyət göstərməsinə müsbət təsir edir.

Nəqliyyatın ayrı-ayrı növlərinin fəaliyyət göstərməsi ilə bağlı olaraq müxtəlif məzmunlu və xarakterli münasibətlər əmələ gəlir ki, onlara nəqliyyat münasibətlər deyilir.Nəqliyyat münasibətlərinin əsas məqsədi təsərrüfat subyektlərini, iqtisadiyyatı və müəyyən bir yerə getmək istəyən sərnişinləri nəqliyyat xidməti ilə təmin etməkdən ibarətdir.

Nəqliyyat münasibətləri kifayət dərəcədə geniş spekterə malikdir.Bu münasibətlər özündə birləşdirir:

-yük və sərnişin daşımalarının təşkili üzrə münasibətlər;

-yük, baqaj və sərnişin daşıma münasibətləri;

-yedəyə alınma ilə bağlı olan münasibətlər;

-nəqliyyat vasitələrinin saxlanması ilə bağlı olan münasibətlər;

-nəqliyyat vasitələrin icarəsi (kirayə) ilə bağlı olan münasibətlər və.s

Nəqliyyat münasibətləri hüquqi cəhətdən müqavilələrlə rəsmiləşdirilir ki, onlar nəqliyyat müqavilələri adlanır.Nəqliyyat müqavilələri nəqliyyat münasibətlərinin rəsmiləşdirilmə vasitəsidir; bu müqavilələrdən, məlum məsələdir ki, nəqliyyat öhdəlikləri yaranır.

Qeyd etmək lazımdır ki, həm nəqliyyat müqavilələri, həm də nəqliyyat öhdəlikləri hüquq ədəbiyyatı səhifələrində kifayət dərəcədə geniş işlənən terminlərdir.Xarici ölkələrin mülki və ticarət hüququnda da bu terminlərdən istifadə olunur.Xüsusən də “nəqliyyat müqavilələri” anlayışı mülki-hüquq elmində (doktrinasında) kök salmış və möhkəmlənmişdir.

## *Avtomobil nəqliyyatının idarə olunmasının hüquqi təşkili*

Göstərilən müqavilələrdə yük daşımalının təşkilinə aid şərtlər (daşınmalı olan yüklərin həcmi, nəqliyyat vasitəsinin verilməsi, yüklərin daşınmaya təqdim olunması, müddət və digər şərtlər) nəzərdə tutulur; yük daşımalarının təşkili haqqında müqavilnin predmeti də məhz bu şərtlərdən ibarətdir. Digər tərəfdən, qeyd etdiyimiz müqavilələr həm də yük daşınması proesi ilə sıx surətdə bağlı olub onun təşkilinə yönəlir, eləcə də əsas müqavilənin-dəmir yolu ilə yük daşınması müqaviləsinin bağlanmasına kömək edir, bu məsələdə yardımçı funksiya yerinə yetirir.Bunlardan əlavə, həmin müqavilələr nəqliyyat qanunvericiliyi ilə tənzimlənir və nəqliyyat müqavilələri sırasına aid edilir.

Bu xüsusiyyətlər belə bir fikir söyləməyə əsas verir ki, yuxarıda göstərdiyimiz müqavilələr dəmir yolu nəqliyyatında yük daşımalarının təşkili haqqında müqavilənin ayrı-ayrı növləridir.Təbii ki, həmin müqavilələr yük daşınması müqaviləsi sayılmır.

Sovet dövründə dəmir yolu nəqliyyatında yük daşımalarının təşkili haqqında müqavilə bağlanırdı; SSRİ Dəmir Yolu Nizamnaməsində bu müqavilənin tənzimlənməsinə həsr olunmuş hər hansı norma nəzərdə tutulmamışdı.Bu, onunla izah olunurdu ki, dəmir yolu nəqliyyatında yük daşımalarının təşkili haqqında müqavilənin predmetini təşkil edən şərtlər (yüklərin həcmi, nəqliyyat vasitəsinin verilməsi, yüklərin daşınmaya təqdim olunması və digər şərtlər) dəmir yolu nəqliyyatında istifadə olunan yuxarıda göstərdiyimiz iki müqavilənin predmetinə daxil edilirdi.

Dəniz nəqliyyatı sahəsində yük daşımalarının təşkili haqqında müqavilə uzunmüddətli müqavilə adlanır.Azərbaycan Respublikası Ticarət Gəmiçiliyi Məcəlləsinin 88-ci maddəsi məhz həmin müqavilənin tənzimlənməsinə həsr edilmişdir.Bu müqavilə o halda bağlanır ki, dənizlə müntəzəm yük daşımalarının həyata keçirilməsinə tələbat olduqda daşıyıcı ilə yük sahibi öz aralarında yük daşımalarının təşkili haqqında müqavilə bağlayır.Bu müqavilə çərçivəsində və ona əsasən konkret dəniz yük daşınması müqaviləsi bağlanır.

Hava nəqliyyatı sahəsində yük daşımalarının təşkili haqqında müqaviləsi "xüsusi müqavilə" anlayışı kimi nəzərdə tutulur.Azərbaycan Respublikasının qüvvədən düşmüş Hava Məcəlləsinin 90-92-ci maddələri xüsusi müqavilənin tənzimlənməsinə həsr olunmuşdu.Amma həmin Məcəlləni əvəz edən "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (2005) bu müqaviləni nizama salan maddələr nəzərdə tutmur.Lakin buna baxmayaraq, hava nəqliyyatı sahəsində xüsusi müqavilələrin bağlanması mümkündür.Belə ki, hava yolu ilə müntəzəm yük daşımalarının həyata keçirilməsinə zərurət yarana bilər. Belə halda müəyyən vaxt dövrü ərzində (məsələn, iki illik müddət ərzində və.s) aralarında təsərrüfat-nəqliyyat əlaqələri olan yük göndərən və daşıyıcı xüsusi müqavilə bağlayırlar.

Avtomobil nəqliyyatı sahəsində də yük daşımalarının təşkili haqqında müqavilədən istifadə olunur.Həmin müqaviləyə uzunmüddətli müqavilə deyilir.Bu müqavilə "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan həmin yükü daşımaya təqdim etməyi öhdəsinə götürür.

## *Avtomobil əlaqələrinin hüquqi nizamlanması*

Yük daşımalarının təşkili haqqında müqavilə öz hüquqi təbiətinə görə ikitərəfli (qarşılıqlı) müqavilədir.Belə ki, müqaviləni bağlayan tərəflər (yükgöndərən və daşıyıcı) bir-birinə münasibətdə qarşılıqlı hüquqlara malik olub, müvafiq vəzifələr daşıyır.

Yük daşımalarının təşkili haqqında müqavilə yükgöndərən üçün yükü daşımaya təqdim etmək kimi vəzifə nəzərdə tutur; bu müqavilənin bağlanmış hesab edilməsi üçün yükün daşıyıcıya təqdim olunması tələb edilmir.Tərəflər, yəni yükgöndərən və daşıyıcı razılığa gəldikləri andan müqavilə bağlanmış sayılır; məhz tərəflərin razılığa gəlmələri müqavilənin bağlanmış hesab edilməsi üçün kifayətdir; müqavilə bağlandığı andan isə tərəflər üçün hüquq və vəzifələr əmələ gəlir.Ona görə də göstərə bilərik ki, yük

daşımalarının təşkili haqqında müqavilə konsensual müqavilədir.O ki, qaldı yükgöndərənin yükü daşıyıcıya təqdim etməsinə, qeyd etmək lazımdır ki, onun bu hərəkəti müqavilənin bağlanmış hesab edilməsini deyil, icra olunmasını ifadə edir.

Yük daşımalarının təşkili haqqında müqavilə o halda bağlanır ki, müntəzəm daşımaların yerinə yetirilməsinə ehtiyac yaransın.Belə ki, müntəzəm daşımaların həyata keçirilməsi zərurəti yarandıqda, daşıyıcı və yük göndərən belə daşımaların təşkili haqqında müqavilələr bağlaya bilərlər.

Yük daşımalarının təşkili haqqında müqavilə çərçivəsində daşıyıcı və yük göndərən arasında dəfələrlə, ayrıca olaraq, bir neçə konkret yükdaşıma barədə müqavilə bağlanır.Buna görə də söyləyə bilərik ki, yük daşımalarının təşkili haqqında müqavilə çərçivə (haşiyə) müqaviləsidir; bu müqavilə o halda bağlanır ki, yükgöndərən və daşıyıcı öz birgə səyləri nəticəsində bir dəfə deyil, bir neçə dəfə yük göndərmək niyyətində olsunlar.

Yük daşımalarının təşkili haqqında müqaviləni tərəflər həm də o halda bağlayırlar ki, onlar daşımanı uzun vaxt dövrü ərzində həyata keçirmək niyyətində olsunlar.Bu isə onu göstərir ki, yük daşımalarının təşkili haqqında müqavilə uzunmüddətli müqavilə sayılır.Bir qayda olaraq, tərəfdaşlar arasında sabit, davamlı və arasıkəsilməz təsərrüfat-nəqliyyat münasibətləri mövcud olduqda uzunmüddətli müqavilə bağlanır.

Yük daşımalarının təşkili haqqında müqavilə hələ konkret yük daşınması müqaviləsini özü deyildir.Belə ki, yük daşımalarının təşkili haqqında müqaviləyə görə, daşıyıcı və yükgöndərən həmin müqavilədə bağlamağı öhdələrinə götürürlər.Bu isə onu deməyə əsas verir ki, yük daşımalarının təşkili haqqında müqavilə ilkin müqavilə, konkret yük daşınması müqaviləsi isə əsas müqavilədir.(MM-in 402-ci maddəsinin 1-ci bəndi)

Qeyd etməliyik ki, yük daşıma mürəkkəb proses olub, özündə iki mərhələni birləşdirir.Birinci mərhələ təşkilati mərhələ adlanır: bu mərhələdə yük daşımalarının həyata keçirilməsi üçün təşkilati zəmin yaradılır.Təşkilati zəmin dedikdə tərəflərin qarşıdakı daşımanın əsas şərtləri və gələcəkdə onlar arasında konkret yük daşınması müqaviləsi bağlanması barədə qabaqcadan razılığa gəlmələri başa düşülür.Yük daşımalarının təşkili üzrə müqavilə təşkilati zəmin yaratmağın əsas hüquqi rəsmiləşdirmə vasitəsidir.Buna görə də daşıma prosesinin birinci mərhələsi (təşkilati mərhələ) həmin müqavilə ilə rəsmiləşdirilir.

O ki, qaldı yük daşıma prosesinin ikinci mərhələsinə, qeyd etmək lazımdır ki, həmin mərhələ yükün bilavasitə daşınması, yəni təyinat yerinə çatdırılması mərhələsi adlanır; bu mərhələ isə yük daşınması müqaviləsi ilə rəsmiləşdirilir.Məhz yük daşınması müqaviləsi həmin mərhələrinin hüquqi rəsmiləşdirmə vasitəsidir.Belə müqavilə isə əmlak müqaviləsi sayılır.

### *Yük daşımalarının planlaşdırılmasının hüquqi məsələləri*

Yük daşımalarının təşkili haqqında müqavilənin əsas xüsusiyyətlərindən biri keçirilir.Yük daşımalarının təşkili haqqında müqavilənin formasına gəldikdə qeyd etməliyik ki, bu məsələ həmin müqavilənin ilkin müqavilə formada olursa, ilkin müqavilə də həmin formada bağlanmalıdır.Başqa sözlə desək, ilkin müqavilə əsas müqavilə üçün nəzərdə tutulmuş formada bağlanır.(MM-in 402-ci maddəsinin 2-ci bəndi).Əsas müqavilə sayılan konkret yük daşınması müqaviləsi həmişə sadə yazılı formada bağlanır.Odur ki, ilkin müqavilə sayılan yük daşımalarının təşkili haqqında müqavilə də sadə yazılı formada bağlanmalıdır.

Yük daşımalarının təşkili haqqında müqavilədə digər şərtlər də nəzərdə tutula bilər.Daşımanın həcmi barədə şərt əsas şərtlərdən biridir.Bu şərt onu ifadə edir ki,

müqavilənin qüvvədə olma müddəti ərzində nə qədər yük daşınmalıdır.Buna görə də daşımanın həcmi dedikdə yük daşımalarının təşkili haqqında müqavilə çərçivəsində və onun nəzərdə tutduğu müddət ərzində daşınmalı olan yükün kəmiyyəti (sayı,miqdarı, çəkisi) başa düşülür.Məsələn, beş min kisə sementin, yüz ton taxılın, dörd min litr benzinin və.s daşınması nəzərdə tutula bilər.

Yük daşımalarının təşkili haqqında müqavilədə tərəflər ( daşıyıcı və yük göndərən) hesablaşma barədə şərt də müəyyən edə bilər.Bu şərt onu ifadə edir ki, gələcəkdə konret daşımalar həyata keçirilən zaman yük sahibi daşıma haqqını daşıyıcıya hansı formada ödəməlidir.Həm nağd, həm də nağdsız hesablaşma formasından istifadə olunması müqavilədə nəzərdə tutula bilər.

Yük daşımalarının təşkili haqqında müqavilənin məzmunu onun əsas elementlərindən biri sayılır.Tərəflərin hüquq və vəzifələri müqavilənin məzmununu təşkil edir.Daşıyıcının əsas vəzifəsi yükü müəyyən olunmuş müddətdə təşkil edir.Daşıyıcının əsas vəzifəsi yükü müəyyən olunmuş müddətdə qəbul etməkdən ibarətdir; həmin müddət müqavilədə göstərillir.Yük vurmaq üçün nəqliyyat vasitəsi vermək onun üstünə düşən digər vəzifədir.Daşıyıcı nəqliyyat vasitəsini nəzərdə tutulmuş müddətdə, şərtləşdirilmiş yerdə və müəyyənləşdirilmiş sayda verməlidir.

Yük göndərinin isə üstünə düşən əsas vəzifə yükü daşınmaq üçün təqdim etməkdən ibarətdir: o, yükü daşınmaq üçün şərtləşdirilmiş müddətdə, nəzərdə tutulmuş həcmdə (miqdarda), zəruri olarsa-qiymətini elan etməklə, tara və qabda, markalamaqla (nişanlamaqla), adı barəsində düzgün məlumat verməklə, habelə onun çəkisini hökmən müəyyənləşdirməklə təqdim etməlidir.

Yük daşımalarının təşkili haqqında müqavilədə tərəflərin digər vəzifələri də nəzərdə tutula bilər.Məsələn, daşınma üçün verilən aylıq, ongünlük və sutkalıq yüklərin minimum və maksimum həcmi, yük vurma və yükboşaltma işlərinin görülməsi və bu işlərdə istifadə olunan mexanizmlər, daşımanın keyfiyyəti və digər məsələlər barədə vəzifələr müəyyənləşdirilməsi mümkündür.

Daşıma prosesində iştirak edən nəqliyyat vasitələrinin növündən asılı olaraq daşıma müqaviləsi üç növə bölünür:

-yerli daşıma müqaviləsi;

-birbaşa daşıma müqaviləsi

-birbaşa qarışıq daşıma müqaviləsi

Yerli daşıma müqaviləsi yerli daşımanı rəsmləşdirir; yerli daşıma iə hər hansı nəqliyyat növü üzrə bir nəqliyyat təşkilatı tərəfindən həyata keçirilir; bu növ daşımada bir nəqliyyat təşkilat iştirak edir, yəni yerli daşıma ancaq bir nəqliyyat təşkilatı çərçivəsində həyata keçirilir.Məsələn, yük dəmir yolu vasitəsilə Bakıdan Kürdəmirə daşnır və.s

Birbaşa daşıma müqaviləsi birbaşa daşımanı rəsmiləşdirir; birbaşa daşıma isə eyni bir daşıma sənədi (məsələn, qaimə və ya çarter və yaxud konosament) əsasında hər hansı nəqliyyat növünün iki və daha artıq nəqliyyat təşkilatı tərəfindən həyata keçirilir; bu zaman daşıma prosesində müəyyən nəqliyyat növünün bir neçə nəqliyyat təşkilatı iştirak edir.Məsələn, Bakı dəmir yolunun köməyi ilə yük Bakıdan Gəncəyə, Gəncədən isə Gəncə dəmir yolunun vasitəsilə Qazaxa çatdırılır.Bu misalda dəmir yol nəqliyyatının iki təşkilatı (Bakı dəmir yolu, Gəncə dəmir yolu) iştirak edir.Özü də daşıma yalnız bir daşıma sənədi (qaimə) əsasında həyata keçirilir.

Birbaşa qarışıq daşıma müqaviləsi isə birbaşa qarışıq daşımanı (ona kombinə edilmiş daşıma da deyilir) rəsmiləşdirir; birbaşa qarışıq daşımalar isə eyni bir daşıma

sənədi əsasında müxtəlif nəqliyyat növlərinin ayrı-ayrı nəqliyyat təşkilatlar tərəfindən həyata keçirilir.Məsələn, yük avtomobil nəqliyyatının vasitəsilə Daşkəsəndən Gəncəyə, dəmir yolu nəqliyyatının köməyi ilə Gəncədən Bakıya, dəniz nəqliyyatının vasitəsilə Bakıdan Xəzər dənizi ilə Türkmənistana daşınır; bu zaman daşımada üç nəqliyyat növünün (avtomobil, dəmi yolu və dəniz nəqliyyatlarının) üç nəqliyyat təşkilatı (avtomobil, dəmir yolu və dəniz nəqliyyatlarının) üç nəqliyyat təşkilat (avtomobil nəqliyyat təşkilatı, dəmir yol nəqliyyat təşkilatı, dəniz nəqliyyat təşkilatı) iştirak edir; daşıma prosesi üç sənədi əsasında deyil, vahid daşıma sənədi əsasında həyata keçirilir.

Əgər yükün xarici ölkəyə çatdırılması və beynəlxalq daşınmanın həyata keçirilməsi zamanı bir neçə nəqliyyat növü iştirak edərsə, buna intermodal Respublikası Qanununun 39-cu maddəsi ilə tənzimlənir.Həmin maddədə göstərilir ki, avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqaviləyə görə daşıyıcı yükü müəyyən olunmuş müddətdə qəbul etməyi, yük göndərən isə şərtləşdirilmiş həcmdə daşınmaq üçün təqdim etməyi öhdəsinə götürür.

Uzunmüddətli müqavilə əsasında konkret yükün daşınmasının nəzərdə tutan birdəfəlik müqavilə bağlanır.Əgər uzunmüddətli müqavilə daşıma prosesinin təşkilatı mərhələsini rəsmiləşdirirsə, birdəfəlik müqavilə daşıma prosesinin ikinci mərhələsini – yükün təyinat yerinə çatdırılma mərhələsinin rəsmiləşdiriləsini həyata keçirir.

Yük daşımalarının təşkili haqqında müqavilənin predmeti onun mühüm elementidir.Bu müqavilənin predmeti qismində qarşıdakı yük daşımalarını təşkil etmək, habelə gələcəkdə yük göndərən və daşıyıcı arasında konkret yük daşınması müqaviləsi bağlamaq kimi münasibətlər çıxış edir.Yük daşımalarının təşkili dedikdə daşınmalı olan yükün həcmini müəyyən edilməsi, nəqliyyat vasitəsinin verilməsi, yükün daşınmaya təqdim olunması başa düşülür.Qeyd etmək vacibdir ki, yük daşımalarının təşkili haqqında müqavilənin predmeti onun təşkilatı və ilkin müqavilə olması ilə müəyyənləşir:

-qarşıdakı yük daşmalarını təşkil etmək (onun təşkilatı müqavilə olmasından irəli gəlir);

-gələcəkdə konkret yük daşınması müqaviləsi bağlamaq (onun ilkin müqavilə olmasından irəli gəlir).

Yük daşımalarının təşkili haqqında müqavilənin müddəti onun elementlərindən biridir.Müddət dedikdə yük daşımalarının təşkili haqqında müqavilənin qüvvədə olma müddəti, yəni müqavilənin hansı müddətə bağlanması başa düşülür.

## *Beynəlxalq yük və sərnişin daşımaları*

Çoxtərəfli sazişlərin “Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında” Konvensiya beynəlxalq avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsini tənzimləyir.Konvensiya 1956-cı ildə Cenevrədə imzalanmış, 1961-ci ildə qüvvəyə minmişdir.Beynəlxalq praktikada o, daha çox “CMR” kimi fransız abbreviaturası ilə tanınır.Azərbaycan Respublikası 2000-ci ildən Konvensiyanın üzvüdür.Konvensiyanın əsas məqsədi beynəlxalq avtomobil yük daşınması müqaviləsini tənzim etməkdən ibarətdir.

“Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşıma sahəsində Gömrük Konvensiya” beynəlxalq avtomobil daşımalarını nizama salan beynəlxalq nəqliyyat sazişlərindən biridir.1959-cu ildə Avropa ölkələri tərəfindən imzalanan Konvensiya 1975-ci ildə yeni redaksiyada qəbul olunmuşdu.

Beynəlxalq hava daşımalarının hüquq rejimi isə Varşava sistemi ilə müəyyən edilir.Varşava sistemi normativ xarakterli beynəlxalq-hüquqi akt kimi beynəlxalq hava daşıma müqaviləsini tənzimləyir.Həmin sistemə üç əsas sənəd daxildir:

-Varşava Konvensiyası

-Haqqa Protokolu

-Qvadalaxara Konvensiyası

Beynəlxalq daşıma müqaviləsi dedikdə iki və ya daha çox dövlət arasında həmin dövlətlərin bağladıqları beynəlxalq sazişlərdə nəzərdə tutulan şərtlər əsasında həyata keçirilən daşımanı rəsmiləşdirən müqavilə başa düşülür.Məsələn, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında bağlanmış beynəlxalq sazişə uyğun olaraq yük avtomobillə Bakıdan Təbrizə daşınır və.s əgər həmin dövlətlər arasında belə saziş olmazsa, onda iki müxtəlif daxili daşıma müqaviləsi bağlanmalıdır; bu müqavilələrdən biri Azərbaycan ərazisində, digəri isə İran ərazisində həyata keçirilən daxili daşımanı rəsmiləşdirəcəkdir.

Göstərilən bölgünün hüquqi əhəmiyyəti ondan ibarətdir ki, daxili daşıma müqaviləsi dövlətin daxili qanunvericiliyi ilə tənzimlənir daşıma hansı dövlətin ərazisində həyata keçirilərsə, həmin dövlətin də qanunvericiliyi tətbiq olunmalıdır.Beynəlxalq daşıma müqaviləsi isə beynəlxalq nəqliyyat sazişləri (nəqliyyat konvensiyaları) ilə tənzimlənir və həmin sazişlərdə nəzərdə tutulan daşıma şərtləri əsasında bağlanır.

Qanunlardan başqa, daşımaların tənzimlənməsində qanun qüvvəli aktlar da vacib rol oynayır.Söhbət Prezident fərmanlarından, Nazirlər Kabinetinin qərarlarından və idarəvi aktlardan gedir.Prezident fərmanları arasında "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 02.09.2002-ci il tarixli 782 nömrəli Fərmanı xüsusilə əhəmiyyətlidir.Bu fərmanla müəyyənləşdirilmiş siyahıya görə, daşıma müqaviləsinin tərəflərindən biri olan daşıyıcı daşıma fəaliyyəti ilə məşğul olmaq və müştərilərlə daşıma müqaviləsi bağlamaq üçün hökmən xüsusi razılıq (lisenziya) almalıdır.Xüsusi razılığın (lisenziyanın) verilməsi qaydaları isə Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmişdir.

İdarəvi aktlar dedikdə, hər şeydən əvvəl, daşıma qaydaları başa düşülür; daşıma qaydaları daşıma münasibətlərinin tənzimlənməsində xüsusi rol oynayır.Ona görə ki, nəqliyyat nizamnamə və məcəllələri daşımaları kifayət dərəcədə tam və əhatəli nizama salmır.Daşıma qaydalarına gəldikdə isə, qeyd etmək lazımdır ki, bu akt yük, sərnişin və baqaj daşımalarını müfəssəl şəkildə tənzimləyir.

“Avtomobil nəqliyyatında hüququn əsasları” fənnindən keçiriləcək imtahan

*SUALLARI*

1.Əsas anlayışlar
2.Qanunun tətbiq edilməsi
3.Avtomobil nəqliyyatı ilə daşımanın növləri
4.Avtomobil nəqliyyatı ilə yükləmələr və boşaltmalar
5.Avtomobil nəqliyyatı sahəsində fəaliyyətinin prinsipləri
6.Avtomobil nəqliyyat vasitələrinə dair ümumi tələblər
7.Avtomobil nəqliyyatının infrastrukturuna dair ümumi tələblər
8.Avtovağzallara dair tələblər
9.Qanunun tətbiq dairəsi
10.Müqavilə anlayışı
11.Avtomobil nəqliyyat vasitələrində müqavilələr
12.Avtomobil nəqliyyat vasitələrində hüquqi müqavilələr
13.Avtomobil nəqliyyat vasitələrinin qeydiyyatı
14.Avtomobil nəqliyyatı ilə daşımaların müqavilələri
15.Avtomobil nəqliyyatı ilə daşımaların həcmi və xarakteri
16.Avtomobil nəqliyyatında əmək münasibətlərinin tənzimlənməsi
17.Avtomobil nəqliyyatı sahəsində dövlət tənzimlənməsi
18.Avtomobil nəqliyyatı sahəsində tənzimləmənin əsas vəzifələri
19.Avtomobil nəqliyyatı xidmətinin tarifləri
20.Avtomobil nəqliyyatı ilə sərnişin daşımaları
21.Avtomobil nəqliyyatı ilə yük daşımaları
22.Sərnişin avtomobil nəqliyyat vasitələrinin sürücülərinə dair tələblər
23.Avtomobil nəqliyyatı ilə sərnişin daşınması müqaviləsi
24.Sərnişin avtomobil nəqliyyat vasitələrinin icarəsi müqaviləsi
25.Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili haqqında müqavilə
26.Sərnişinin əsas hüquqları
27.Sərnişinin əsas vəzifələri
28.Avtomobil nəqliyyatı ilə baqaj daşınması
29.Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən daşıyıcının əsas vəzifələri
30.Daşıyıcının avtomobil nəqliyyatı ilə sərnişin daşınmasından imtina etməsi
31.Sərnişinin əsas vəzifələri
32.Avtomobil nəqliyyatı ilə sərnişin daşınmaları müqaviləsi
33.Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi
34.Avtomobil nəqliyyatı ilə baqaj daşınması
35.Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqavilə
36.Sərnişin daşınmalarının lisenziyalaşdırılması
37.Avtomobil nəqliyyatının standartlaşdırılması
38.Avtomobil nəqliyyatının metroloji təminatı
39.Avtomobil nəqliyyatının sertifikatlaşdırılması
40.Avtomobil nəqliyyatı ilə sərnişin daşınması qaydaları
41.Avtomobil nəqliyyatı ilə baqaj daşınması qaydaları
42.Yük daşınması qaydaları
43.Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşınmalar
44.Taksi minik avtomobilləri daşımalar

45.Avtomobil nəqliyyatı ilə sərnişin daşımalarının sifarişi
46.Nəqliyyat sənədləri
47.Avtomobil nəqliyyatı ilə daşımaların marşrutu
48.Avtomobil nəqliyyat vasitələrinin daşınmasının sifarişçilərinə təqdim olunması
49.Taksi minik avtomobilləri ilə sərnişin daşımaları
50.Nəqliyyat sənədləri
51.Avtomobil nəqliyyatı ilə yük daşınmasının təşkili haqqında müqavilə
52.Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının lisenziyalaşdırılmasının xüsusiyyətləri
53.Avtomobil nəqliyyatı ilə daşımaların marşrutu
54.Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi
55.Avtomobil nəqliyyatı ilə yük daşınması müqaviləsi
56.Avtomobil nəqliyyat vasitələrinin sifarişçisinə təqdim olunması
57.Avtomobil nəqliyyatı ilə daşımaların sığortalanması
58.Ətraf mühitin mühafizəsinin təmin olunması
59.Avtomobil nəqliyyatı ilə daşımaların marşrutu
60.Avtomobil nəqliyyatı ilə yük daşınmasının rəsmiləşdirilməsi
61.Yük müşayiətedici sənədlər
62.Yükün daşınma üçün hazırlanması
63.Yükün təqdim olunması
64.Yükün daşınması üçün təqdim edilməsi
65.Yükün yük alana təhvil verilməsi
66.Yükün yüklənməsi müddətləri
67.Yükün çatıdırılması müddətləri
68.Yükün boşaldılması müddətləri
69.Yükün daşınması üçün qəbul edilməsi
70.Yük müşayiətedici digər sənədlər
71.Avtomobil nəqliyyatı ilə təhlükəli yüklərin daşınması
72.Avtomobil nəqliyyatı ilə iriqabaritli yüklərin daşınması
73.Ağırçəkili yüklərin daşınması
74.Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili
75.Qarışıq yük daşımalarının yerinə yetirilməsi
76.Yükün yüklənməsi, çatdırılması və boşaldılması müddətləri
77.Avtomobil nəqliyyatının fəaliyyət sahəsində məsuliyyət
78.Avtomoibl nəqliyyatı ilə daşınma müqaviləsində irəli gələn öhdəliklərə görə məsuliyyət
79.Yükün qorunub saxlanması
80.Əl yükünün zədələnməsinə görə avtomobil daşıyıcının məsuliyyəti
81.Avtomobil nəqliyyatında müqavilə anlayışı
82.Avtomobil nəqliyyatında hüquqi tənzimləmələr
83.Sərnişin daşımaları müqavilələri
84.Yük daşımaları müqavilələri
85.Qarışıq daşımalar
86.Arbitraj məhkəməsi
87.Daşımaların müxtəlif qaydaları
88.Beynəlxalq daşımaların təşkili
89.Qarışıq yük daşımalarının yerinə yetirilməsi
90.Avtomobil nəqliyyatı ilə təhlükəli yüklərin daşınması

91.Avtomoibl nəqliyyatı ilə beynəlxalq daşımalar
92.Avtomobil nəqliyyatı ilə ağırçəkili yüklərin daşınması
93.Yükün yük alana təhvil verilməsi
94.Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması
95.Avtomobil nəqliyyatı sahəsində dövlət tənzimlənməsi
96.Qarışıq yük daşımalarının yerinə yetirilməsi
97.Avtomobil nəqliyyatı ilə yüklərin daşınması qaydaları
98.Avtomobil nəqliyyatı ilə daşımaların təşkili
99.Yük alanın yükü almaqdan imtina etməsi
100.Yüklərin imtinalar zamanı başqa ünvana çatdırılması haqda tələblər

İstifadə edilən ədəbiyyatlar

1.“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanunu Bakı 9 iyul 2008

2.”Nəqliyyat haqqında” Azərbaycan Respublikasının Qanunu Bakı, 11 iyun 1999

3. E.Ə.Əliyev “Nəqliyyat hüququ”, “Hüquq” Bakı 2009